Günəş Şərqdən doğur!

❒ № 80 (5361), 2021-ci il

Qiyməti 40 qəpik

# ŞƏRQ

Müstəqil İctimai-siyasi qəzet

www.sherg.az 6 may 2021-ci il (cümə axşamı)



## Nəşi 220 gün sonra tapıldı

Şəhidimiz Mingəçevirdə torpağa tapşırıldı

(Səh.8)

**Günün içindən...**



### "Qardaşlıq münasibətlərimiz daha da güclənəcək"

Prezident İlham Əliyev: "Bizim birlikdə start verdiyimiz bütün təşəbbüslərin yaxşı uğur hekayəsi var"

Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev dünən ölkəmizdə səfərdə olan Gürcüstanın Baş naziri İrakli Qaribaşvilini qəbul edib.

(səh.2)

### ABŞ Azərbaycanın 3 ermənini azad etməsini alqışlayır



**ABŞ Azərbaycanın 3 ermənini azad etməsini alqışlayır.**

Bunu ABŞ-ın dövlət katibi Entoni Blinken öz "Twitter" səhifəsində yazıb.

(səh.2)

# Putinlə Ərdoğan Qarabağdan danışıblar

AKTUAL



## Liderlər Ağdamdakı mərkəzi də müzakirə ediblər

**Rusiya Prezidenti Vladimir Putin və onun türkiyəli həmkarı Rəcəb Tayyib Ərdoğan arasında telefon danışığı olub.**

Telefon danışığı zamanı Türkiyədəki mövcud epidemioloji vəziyyət daxil olmaqla koronavirus infeksiyasının yayılmasına qarşı mübarizə mövzusu müzakirə olunub.

(səh.2)

## Bakıda güclü külək TIR-ı aşırdı

15 ağac qırılıb, işıq dirəyinə ziyan dəyib

(səh.9)



### Gözləntilərimiz var

Üç erməni hərbçinin qaytarılmasının qarşılığı olacaq

(səh.3)

### Hər gün Moskvanın qapıları döyülür

Ermənistan hakimiyyəti Kremli "su yoluna" döndərib

(səh.5)

### Həkimlər xilas edə bilmədi

Bakıda başına daş plitəsi düşən yeniyetmə ölüb

(səh.9)

### Yoluxanların sayı yenə artdı

Koronavirusdan 20 nəfər vəfat edib, 2 074 nəfər sağalıb

(səh.8)

### Mollaların bəziləri özlərini azərbaycanlı kimi aparmır



Şərqşünas Sabir Rüstəmxanlının və digər millət vəkillərinin narahatlıqlarını bölüşür

(səh.8)

## Əlvida, şair!

Fikrət Qoca Birinci Fəxri Xiyabanda dəfn olundu

(səh.6)



# “Qardaşlıq münasibətlərimiz daha da güclənəcək”



## Prezident İlham Əliyev: “Bizim birlikdə start verdiyimiz bütün təşəbbüslərin yaxşı uğur hekayəsi var”

**Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev dünən ölkəmizdə səfərdə olan Gürcüstanın Baş naziri İrakli Qaribaşvilini qəbul edib.**

*Gürcüstanın Baş nazirini salamlayan Prezident İlham Əliyev dedi:*

- Cənab Baş nazir, Azərbaycana xoş gəlmisiniz. Sizi görməyə çox şadam. Əminəm ki, səfər çox uğurlu olacaq və bizim qardaşlıq münasibətlərimizi gücləndirəcək. Xalqlarımız arasında münasibətlər uzun tarixə əsaslanır, əsrlər boyu davam edən yaxşı qonşuluq və dostluq tarixinə əsaslanır. Hesab edirəm ki, bu, böyük dinamikanı nümayiş etdirən və faktiki olaraq bir çox sahələri əhatə edən cari münasibətlərimizin inkişafı üçün çox yaxşı zəmindir. Çox şadam ki, bizi ziyarət edirsiniz. Sizə möhkəm can sağlığı arzulayıram. Bilirəm ki, bu yaxınlarda koronavirusa yoluxmuşdunuz. Çox şadam ki, tamamilə sağalmısınız. Bu, sizin Azərbaycana səfərinizin bir az təxirə salınmasının səbəbi idi.

Bizim enerji və nəqliyyat layihələri kimi birgə layihələrin icrası üzrə yaxşı tariximiz var. Bu layihələr regionun siyasi, iqtisadi, nəqliyyat və energetika xəritəsini dəyişmişdir. Ölkələrimiz arasında güclü tərəfdaşlıq olmasaydı, bu layihələrin icrası mümkün olmazdı. Ötən ilin sonuncu günü Cənub Qaz Dəhlizi layihəsinin icrasının sonuncu günü idi. Bu layihə təkcə Cənubi Qafqaz regionunda yox, daha geniş Avrasiya regionunda ümumi inkişaf, sabitlik, proqnozlaşdırma, əməkdaşlıq üçün mühüm əhəmiyyət kəsb edir. Bir daha qeyd edirəm, bizim əməkdaşlığımız olmasaydı bu, mümkün olmazdı. Buna görə, bu vacib layihənin icrasına davamlı dəstək göstərdiyinə görə Gürcüstan hökumətinə dərindən minnətdaram. Bizim birlikdə start verdiyimiz bütün digər təşəbbüslərin də yaxşı uğur hekayəsi var. Əminəm ki, gələcəkdə də belə olacaq.

Mən indicə bəzi məlumatlara baxdım və gördüm ki, Azərbaycan Gürcüstan iqtisadiyyatında ən böyük investorlardan biri olmağa davam edir. Bu da, həmçinin çox müsbət və əlverişli investisiya mühitinin yaradılmasında sizin hökumətinizin həyata keçirdiyi islahatların yaxşı göstəricisidir. Bilirəm ki, daha da çox Azərbaycan şirkəti sizin ölkənizdə çalışmaq istəyir və əminəm ki, bu, baş verəcək. Bu gün biz əlbəttə ki, nail olduqlarımızı nəzərdən keçirəcəyik və gələcək addımlarımızı planlaşdıracağıq. Sizə ən xoş arzularımı çatdırıram. Bir daha xoş gəlmisiniz.

**Baş nazir İrakli Qaribaşvili dedi:**

- Cənab Prezident, məni qəbul etdiyinizə görə təşəkkür edirəm. Sizinlə yenidən Bakıda görüşmək böyük məmnuniyyət və şərəfdir. Qeyd etdiyiniz kimi, biz səfərimizi mənim koronavirusa yoluxmağım səbəbindən təxirə salmaq məcburiyyətində olduq. Lakin şadam ki, bu gün Bakıdayıq. Siz qeyd etdiniz ki, bizim mükəmməl münasibətlərimiz var və münasibətlərimiz əsrlər boyu davam edir. Mən Sizin atanızın vaxtilə Tbilisidə dediyi sözləri təkrar etmək istəyirəm - tale belə müəyyənləşdirib və bəxtimiz gətirib ki, biz qonşuyuq, gürcü və Azərbaycan xalqları qonşudurlar. Bu, bizim taleyimizdir. Biz bir-birimizə çox bağlıyıq və qarşılıqlı əlaqədəyik. Qeyd etdiyiniz kimi, biz birlikdə bəzi ən mühüm əhəmiyyət kəsb edən tarixi layihələri icra etmişik. Ona görə də, biz münasibətlərimizi və qardaşlığımızı gücləndirəcək daha çox layihələrin birgə icrasını davam etdirməkdə tamamilə qətiyyətli və həvəsliyik. Bir daha mənim başçılıq etdiyim nümayəndə heyətini burada, Bakıda qəbul etdiyiniz üçün Sizə minnətdarlığımı bildirmək istəyirəm. Mən fürsətdən istifadə edərək Sizin üçün münasib vaxtda bizi Tbilisidə ziyarət etmək üçün Sizi səfərə dəvət etmək istərdim. Çox sağ olun.

## ABŞ Azərbaycanın 3 erməni azad etməsini alqışlayır




**ABŞ Azərbaycanın 3 ermənini azad etməsini alqışlayır.**

Bunu ABŞ-ın dövlət katibi Entoni Blinken öz ”Twitter” səhifəsində yazıb.

E.Blinken bildirib: ”Biz tərəfləri bütün saxlananları, əsirləri, məhkumları və həlak olanların meyitlərini dəyişmək prosesini tam və operativ şəkildə başa çatdırmağa, eləcə də saxlanılanlarla humanist davranmaq üzrə öhdəliklərə əməl etməyə çağırırıq”.

## Vətən Müharibəsi qəhrəmanlarına məzuniyyət verilməsi qaydası müəyyənləşir



**Azərbaycan Respublikası Vətən Müharibəsi qəhrəmanlarına məzuniyyət verilməsi qaydası müəyyənləşir.**

APA-nın məlumatına görə, bununla bağlı Əmək Məcəlləsinə dəyişiklik təklif edilir.

Dəyişikliyə əsasən, Azərbaycan Respublikası Vətən Müharibəsi qəhrəmanlarına məzuniyyət 46 təqvim günündən az olmayaraq veriləcək.



## Bakıda istismara yararsız 108 bina var

**Bakı şəhəri üzrə meriyanın balansında olan 108 ədəd istismara yararsız bina mövcuddur.**

Trend-in məlumatına görə, bunu Bakı şəhər İcra Hakimiyyətinin (BŞİH) şöbə müdiri Rəşid Ağayev deyib. Onun sözlərinə görə, hazırda BŞİH-in balansında 11 min ədəd çoxmənzilli yaşayış binası mövcuddur: ”Bu binalardan 108-i istismara tam yararsız vəziyyətdədir. Həmin binanın yarasız olması və insanların köçürülməsi barədə bizə artıq Fövqəladə Hallar Nazirliyi tərəfindən rəy verilib. Rəyə əsasən, biz Nazirlər Kabinetinə də artıq müraciət etmişik”.

*Xatırladaq ki, bir neçə gün öncə Badamdar qəsəbəsində binanın üzlük daşının 14 yaşlı yeniyetmənin başına düşməsi nəticəsində bədbəxt hadisə baş verib. Həmin yeniyetmə bu gün dünyasını dəyişib.*

# Putinlə Ərdoğan Qarabağdan danışıblar

## Liderlər Ağdamdakı mərkəzi də müzakirə ediblər

**Rusiya Prezidenti Vladimir Putin və onun türkiyəli həmkarı Rəcəb Tayyib Ərdoğan arasında telefon danışığı olub.**

**Telefon danışığı zamanı Türkiyədəki mövcud epidemioloji vəziyyət daxil olmaqla koronavirus infeksiyasının yayılmasına qarşı mübarizə mövzusu müzakirə olunub.**





“Rusiyanın bu istiqamətdə praktiki əməkdaşlığı möhkəmləndirməyə hazır olduğu qeyd olunub. Söhbət bu aydan başlayaraq ”Sputnik V” peyvəndinin Türkiyəyə göndərilməsindən, eləcə də Türkiyədə bu vaksinin birgə istehsalının mümkünlüyündən gedir.

Ərdoğan Rusiya tərəfinə göstərdiyi yardıma görə təşəkkürünü bildirib. Hər iki tərəfin fikrincə, əks-epidemik tədbirlər vəziyyətin kardinal şəkildə yaxşılaşmasına və turizm sahəsində ikitərəfli əlaqələri bərpa etməyə nail olmağa imkan verəcək.

Aktual regional problemlərə baxılması davam etdirilib. Suriyadakı vəziyyətin sabitləşməsində Rusiya-Türkiyə əməkdaşlığının konstruktiv xarakter daşıdığı qeyd olunub. (apa)

Liviyadakı vəziyyətlə bağlı müzakirələr zamanı əsas siyasi qüvvələrin və regionların maraqlarını nəzərə alaraq ölkənin bütövlüyünü gücləndirmək üçün Milli Birlik Hökumətinin səylərini davam etdirməyə razılıq verilib.

Ağdamda yerləşən Dağlıq Qarabağda atəşkəsə nəzarət üzrə Rusiya-Türkiyə Birgə Monitorinq Mərkəzinin fəaliyyəti və münaqişə zonasında bütün hərbi fəaliyyətlər kontekstində Dağlıq Qarabağ nizamlanması probleminə toxunulub.

Liderlər şəxsi təmasları davam etdirməyə və digər kanallar vasitəsilə müntəzəm ikitərəfli dialoqu inkişaf etdirməyə razılaşıblar”, - deyə Kremlin məlumatında qeyd olunub.

# Gözləntilərimiz var

## Üç erməni hərbçinin qaytarılmasının qarşılığı olacaq



Daha üç hərbi əsir Azərbaycandan Ermənistana qaytarılıb. Onları gətirən təyyarə İrəvanın "Erebuni" aeroportuna enib. Bildirilib ki, onların geri verilməsi ATƏT-in Minsk qrupunun həmsədr ölkələrinin səyləri nəticəsində və Azərbaycana qarşı beynəlxalq təzyiqin artması fonunda baş tutub.

"Biz ümid edirik ki, bu proses öz məntiqi davamını alacaq və tezliklə başa çatacaq", - baş nazir müavini səlahiyyətlərinin icraçısı Tiqran Avinyanın ofisindən deyiblər.

**"Şərq" olaraq dünəndən bəri sosial şəbəkələrdə geniş müzakirə olunan məsələ barədə Sosial Tədqiqatlar Mərkəzinin mətbuat xidmətinin rəisi, beynəlxalq məsələlər üzrə ekspert Əziz Əlibəylinin fikirlərini öyrəndik. O, baş verənləri belə qiymətləndirdi:**

"Azərbaycanın siyasi iradəsi ortadadır. Bu, müharibədə qalib gəldikdən sonra əsir və girovlarla bağlı məsələnin həllini tapmasında özünü göstərir. Hər halda rəsmi Bakı səmimi niyyətini nümayiş etdirir. Lakin məsələ ondan ibarətdir ki, Ermənistan Azərbaycana qarşı ciddi informasiya müharibəsi aparır. Saxlanılan şəxslər terrorçudurlar. Müharibə qaydalarına görə onlar nə əsir, nə də girov hesab olunurlar. Həmin hərbçilər Azərbaycanın Cinayət Məcəlləsinə görə məsuliyyət daşıyırlar və yerli məhkəmələr qarşısında mühakimə olunmalıdırlar".

*Ə.Əlibəyli, həmçinin bildirdi ki, Ermənistan yenə də çirkin niyyətindən əl çəkmir:* "Sülhməramlıların oynadığı rol, Rüstəm Muradovun Bakıya gəlməsi və hərbi əsirləri aparması noyabrın 10-da imzalanan üçtərəfli bəyanata sadiqlik kimi qiymətləndirilməlidir. Həmçinin Azərbaycanın atdığı addımlar da belə dəyərləndirilməlidir. Bizim gözləntilərimiz var. Və görünür, həmin gözləntilərin müəyyən hissəsi reallaşdığına görə biz belə addım atdıq. Ermənistan tərəfi deyir ki, üç nəfər "hərbi əsir"in qaytarılması ATƏT-in Minsk qrupunun səylərinin və Azərbaycana qarşı beynəlxalq təzyiqlərin nəticəsidir. Lakin əslə belə deyil. Bizim qətiyyətli mövqeyimiz ortadadır. Bir müddət əvvəl İrəvana boş qayıdan təyyarə hər şeyi sübut edir. İrəvanın hadisələri belə qələmə vermək cəhdi isə onun ikiüzlülüyünün və məğlubiyyət qarşısında məntiqini itirməsinin göstəricisidir".

**Hərbi ekspert Ədalət Verdiyev də "Şərq"ə açıqlamasında belə bir addımın əbəs yerə atılmadığını bildirib:** "Azərbaycanın üç terrorçunu əvəzsiz olaraq qaytarmasını düşünmək sadəlövhlük olar. Bizim də tələblərimiz var. Məsələn, minalı ərazilərin xəritəsinin verilməsi, I Qarabağ müharibəsində itkin düşənlərin qalıqlarının qaytarılması, II Qarabağ müharibəsində iyirmiyə yaxın itkin hərbçimizin olması, Njdenin Xocavənddəki heykəlinin sökülməsi və s.

Nəzərinizə çatdırım ki, Xocavənd Azərbaycan ərazisidir. Və bizim icazəmiz olmadan orda kimsə hansısa təşəbbüslə çıxış edə, o cümlədən heykəl ucalda bilməz.

Həmçinin Qırmızıbazar - Şuşa yolunun və Zəngəzur dəhizinin açılması da tələblərimiz sırasındadır. Zəngəzur dəhlizinin açılması Rusiyanın da maraqlarına cavab verir. Moskva sanksiyalar altında "boğulduğuna" görə Zəngəzur dəhlizi vasitəsilə qərbə çıxış əldə edə bilər.

Qaytarılan hərbçilərin qarşılığında sadaladığımız tələblər yerinə yetirilməlidir. Əslində digər terrorçular da zamanla qaytarılacaq. Sadəcə, əvvəlcə Azərbaycan məhkəmələri qarşısında mühakimə edilməlidirlər".

**Kənan**



## XİN başçısının səfəri heç nəyi dəyişməyəcək

### Ən vacib məsələləri prezidentlər çözür

**Məlum olduğu kimi, mayın 10-11-də Rusiyanın Xarici İşlər naziri Sergey Lavrovun Azərbaycana işgüzar səfəri baş tutacaq. Dünən isə Rusiya XİN rəhbəri İrəvanda olub.**

Məlumata görə, S.Lavrov Ermənistanın baş naziri səlahiyyətlərini icra edən Nikol Paşinyan və xarici işlər naziri səlahiyyətlərini icra edən Ara Ayvazyanla görüşləri baş tutub. Lavrovun İrəvana səfərindən 5 gün sonra Bakıya gəlməsi birmənalı qarşılanmır. Belə güman edilir ki, İrəvanda danışıqlar aparılandan sonra Kremldə müəyyən mövzuların müzakirəsinə ehtiyac yaranacaq.

Maraqlıdır, səfər zamanı Lavrov hansı məsələ ilə bağlı Azərbaycanı razı salmağa çalışacaq. Rusiya Prezidenti Vladimir Putin onu bo?lgəyə hansı missiya ilə göndərir?

**Sabiq XİN başçısı Tofiq Zülfüqarov rusiyalı nazirin səfərinə dair fikirlərini "Şərq"lə bölüşüb:** "Artıq belə bir adət mövcuddur ki, ildə bir dəfə həm Azərbaycanın Xarici işlər naziri Rusiyaya, həm də Rusiya XİN başçısı ölkəmizə səfər edir.

Hansısa aktual mövzu ortaya çıxanda görürük ki, dövlət başçıları bir-biri ilə sıx təmasda olurlar, telefonla danışırlar.

Bu səfərin əsas məqsədlərindən biri ikitərəfli münasibətlərin geniş müzakirəsi və iki nazirlik arasında əməkdaşlığın perspektivlərini gözdən keçirməkdir. Aktual və vacib məsələləri isə Rusiya və Azərbaycanın dövlət başçıları müzakirə edir.

Artıq Lavrov Azərbaycan və Ermənistana aid məsələlərdə aktiv rol oynamır. Dediyim kimi, bu mövzu ilə birbaşa dövlət başçıları məşğul olur".

**Yeganə**

## ABŞ hər zaman Türkiyənin müttəfiqi olaraq qalacaq

### Ərdoğanın son açıqlamaları Fransaya sərf etmədi



**"Fransa parlamentindəki sərsəm çıxışlar, çox güman ki, öz gücünü Baydenin son açıqlamasından alıb. Ancaq unutmamaq lazımdır ki, biz hər şeyə rəğmən 44 gün ərzində 30 illik lazımsız danışıqlara son qoyduq. Bu məsələdə Türkiyə faktoru danılmazdır".**

Bu sözləri siyasi analitik Rusif Məmmədsoy deyib.

*O, daha ətraflı "Şərq"ə danışdı:* "Fransaya çox da əhəmiyyət vermək lazım deyil. Fransanın Türkiyəyə münasibəti hər birimizə məlumdur. Ancaq Ərdoğanın son açıqlamaları onlara sərf etmədi. Türkiyə prezidenti öz praqmatikliyini qorudu. Rəcəb Tayyib Ərdoğan "ABŞ hər zaman Türkiyənin müttəfiqi olaraq qalacaq. Eyni zamanda da NATO-nun" açıqlaması bu baxımdan xarakterikdir. Diqqət edin, "tərəfdaş" yox, məhz "müttəfiq"".

**Kənan**

# Dostluq belə olmur

## İranın gizlinlərinə göz yuma bilmərik

"Qonşu İranın Ermənistan üzərindən, "Laçın dəhlizi" vasitəsilə Xankəndinə gizli və şübhəli yüklər göndərməsini aşkara çıxaran videogörüntülər hamımızı məyus etdi". Bu barədə Milli Həmrəylik Partiyasının sədri Əlisahib Hüseynov deyib. Partiya rəhbəri bildirib ki, İran bunu etməməliydi, bunun adı "humanitar yardım" deyil:

"Bizimlə razılaşdırmadan, Azərbaycandan icazə almadan və ya ən azından Azərbaycanı xəbərdar etmədən "yardım" adı altında Xankəndiyə yük daşımağın adını nə istəsəniz qoya bilərsiniz. Bu, açıq surətdə qaçaqmalçılıq, özbaşınalıq və qonşuluq prinsiplərinə saygısızlıqdır. Beynəlxalq hüquqa zidd olmaqla yanaşı, ərazi bütövlüyümüzə qarşı hörmətsizlikdir. Ən yaxın qonşularımız tərəfindən erməni separatçılığına dəstək verilməsinin bir daha əyani təsdiqidir. Görünən budur ki, istər 30 ilə yaxın davam edən işğal dönəmində, istərsə də 44 günlük müharibə zamanı Ermənistanı ayaqda saxlamağa çalışan, Xankəndidəki separatçılara silah ötürən İran bu gün də öz məkrli ənənələrinə sadiqdir. Üzdə özünü bizə dost kimi




> *"Tehran yenə Ermənistanı və Xankəndidəki separatçıları bu və ya digər formalarda dəstəkləməyə, ermənilərin müharibə yaralarını sarımağa davam edir"*

göstərən İran, reallıqda Ermənistanı və Xankəndidəki separatçıları bu və ya digər formalarda dəstəkləməyə, ermənilərin müharibə yaralarını sarımağa davam edir".

**Ə.Hüseynov vurğulayıb ki, Rusiya sülhməramlıları da bu işdə İranla əlbir olmuş kimi görünür:** "Sözügedən yüklər birbaşa rus sülhməramlılarının gözləri önündə daşınır. Bu, Rusiya sülhməramlılarının İranın "yardım"larına humanist yanaşmasıdırmı? Biz yardımların əleyhinə deyilik. Əgər qonşularımız həqiqətən də Xankəndidəki mülki ermənilərə humanitar yardım etmək istəyirlərsə, bunu leqal şəkildə, öncədən rəsmi Bakı ilə razılaşdırmaqla etsinlər. Əgər Bakının bu "yardım"lardan xəbəri yoxdursa, deməк ki, bunun adı rəsmən qaçaqmalçılıqdır. Biz hələ bilmirik İrandan bizim ərazimizə "yardım" adı altında nə daşıyırlar. Kim zəmanət verə bilər ki, "yardım" adı altında Xankəndinə silah-sursat daşınmır? Kim zəmanət verə bilər ki, bu gün Xankəndinə daşınan bu "yardım"lar sabah hansısa təxribatlar formasında Azərbaycana qarşı çevrilməyəcək və yaxud, ərazi bütövlüyümüzə təhdid yaratmayacaq? Özünün köməyə ehtiyacı olan İranın məhz Xankəndidəki bir ovuc separatçıya belə canfəşanlıqla kömək etməkdə marağı nədir? İran tərəfi bütün bunlara aydınlıq gətirməlidir".

**İsmayıl Qocayev**

# Köhnə “oyunçular” meydanı tərk etməlidir




## “Yaxşı olar ki, Minsk qrupu Ermənistanın Azərbaycan torpaqlarında törətdiyi vəhşiliklərə qiymət versin”

Fransanın Ermənistandakı səfiri Conatan Lakot bir neçə gün əvvəl baş tutan Rusiya və Fransa prezidentlərinin görüşünü şərh edib və bəzi detalları açıqlayıb. Səfir vurğulayıb ki, Moskva və Paris "Dağlıq Qarabağ konflikti" ətrafında situasiyanın dayanıqlı həllinə nail olmaq üçün Minsk qrupu çərçivəsində səylərini yeniləmək barədə razılaşıblar. Onun sözlərinə görə, yaxın zamanlarda bu istiqamətdə konkret təşəbbüslər ediləcək:

”Qafqazdakı situasiyaya gəlincə, Prezident Makron ”hərbi əsirlər”, humanitar yardım və mədəni irsin müdafiəsi məsələlərində konkret inkişafa nail olmağın vacibliyini vurğulayıb”. Səfir ”Qarabağ konflikti”nin sülh yoluyla həlli ilə bağlı danışıqların yenilənməsinin həmsədrlər üçün prioritet olduğunu söyləyib. Rəsmi Bakı Minsk qrupu ilə bağlı konkret mövqeyini ortaya qoyub və münaqişənin bitdiyini dəfələrlə vurğulayıb. Amma göründüyü kimi Fransa və Rusiya israrla həmsədrlər məsələsini yenidən gündəmə gətirməyə, ”ölmüş” vasitəçilik missiyasını diriltməyə çalışırlar.

**Siyasi icmalçı Azər Niftiyev ”Şərq”ə açıqlamasında bildirib ki, Rusiya və Fransa Minsk qrupu amilini yenidən qabartmaqla, Azərbaycana təzyiq göstərməyə çalışırlar.** Ekspertin sözlərinə görə, ölkəmizin regionda artan rolu, böyük iqtisadi layihələrin Azərbaycan üzərindən həyata keçirilməsi beynəlxalq oyunçuları narahat edir: ”Onları əsas narahat edən daha bir məqam isə münaqişə tərəflərindən birinin - Azərbaycanın müstəqil siyasət yürütməsi ilə bağlıdır. Türkiyə ilə Azərbaycan arasında yaxınlaşan münasibətlər də ciddi narahatlıq doğurur. Anlayırlar ki, ölkəmiz qarşıdakı mərhələdə Türkiyə ilə bərabər addımlar atmaqda israrlıdır. Hesab edirəm ki, Fransanın Ermənistandakı səfiri Conatan Lakotanın məlum açıqlaması Azərbaycanla yanaşı, həm də Türkiyəyə qarşı təzyiqdir. Uzun illərdir tarixi Azərbaycan torpaqlarının işğal edilməsinə göz yuman beynəlxalq birlik, o cümlədən Rusiya və Fransa 44 günlük Vətən müharibəsi zamanı əldə etdiyimiz tarixi Zəfəri həzm edə bilmir. Xüsusən, müharibə sonrası Prezident İlham Əliyevin açıqlamaları, status məsələsinin və münaqişənin bitdiyini dəfələrlə söyləməsi ermənilərə bağlı qüvvələri hərəkətə keçirib. Hər kəsə məlumdur ki, Ermənistan uzun illərdir regionda Rusiyanın forpostu rolunda çıxış edir. Fransa isə erməni lobbisinin ən güclü dayaqlara malik olduğu, ermənipərəst bir ölkədir. Bu xüsusda Minsk qrupu ilə bağlı müzakirələrin yenidən gündəmə gətirilməsi təsadüfi deyil. Söhbət o Minsk qrupundan gedir ki, fəaliyyət göstərdiyi müddətdə heç bir irəliləyişə nail olmayıb. Kağız üzərində fəaliyyət göstərən bu qurum bu günə qədər mövcud olan ən uğursuz birliklərdən biri olub. Yenidən bu qurumun rolunu qabartmaq, guya, sülhə nail olacağını iddia etmək gülüncdür və yəqin ki, bu, elə söz olaraq qalacaq. Bu mənada ciddi narahatlığa əsas görmürəm”.

*Rəsmi Bakının məsələyə münasibətindən danışan A.Niftiyevin sözlərinə görə, Azərbaycan münaqişənin dinc yolla həllinə uzun müddət çalışıb. Məhz bu baş vermədiyinə görə, öz doğma torpaqlarını işğaldan azad edib:* ”Minsk qrupu iş görən olsaydı, bu müddət ərzində görərdi. Minsk qrupunun yarıtmaz fəaliyyətinin nəticəsidir ki, münaqişənin həlli illərlə uzanıb. Bu gün isə Azərbaycan öz torpaqlarını işğaldan azad edib. Bilirsiniz ki, Azərbaycan tərəfi həmişə konstruktiv dialoqa hazır olub. Bu gün də hazırdır. Lakin bu məsələdən Azərbaycana qarşı təzyiq kimi istifadə etmək istəyənlər anlamalıdırlar ki, bu yolla ən böyük zərbəni Ermənistana vururlar. Məhz işğalçı və terrorçu fəaliyyətinin nəticəsidir ki, Ermənistan bütün regional iqtisadi layihələrdən kənarda dayanıb. Faktiki olaraq düşmən ölkə səfalət həddindədir. Yaranmış tarixi fürsətdən istifadə etmək, nəqliyyat və kommunikasiya xətlərini bərpa etməklə, bu vəziyyətdən çıxmağa çalışmalı olan Ermənistanı yenidən qızışdırmaq regionda sabitliyin olmasında maraqlı olmayan qüvvələrin mövcudluğundan xəbər verir. Yaxşı olar ki, Minsk qrupu Ermənistanın Azərbaycan torpaqlarında törətdiyi vəhşiliklərə qiymət versin. Ermənilər orada daşı daş üstdə qoymayıblar. Sanki oradan vəhşi bir qəbilə keçib. Onların bununla bağlı bircə bəyanatına belə rast gəlmək olmur. Heç şübhəsiz, baş verənlər, o cümlədən bu məsələdə Fransa-Rusiya yaxınlaşması hadisələrin gedişatına təsir göstərməyəcək. Conatan Lakotanın açıqlaması da kağız üzərində qalacaq. Çünki Minsk qrupunun münaqişələri nizamlamaq təcrübəsi yoxdur və bayaq qeyd etdiyim kimi, uğursuz bir qurum kimi faktiki olaraq öz ömrünü başa vurub”.

**İsmayıl Qocayev**

## Revanşist bəyanatlar verirlər

### Bayramov gürcüstanlı həmkarını Ermənistanla bağlı xəbərdar etdi



**Azərbaycan Respublikasının xarici işlər naziri Ceyhun Bayramov Gürcüstanın Baş nazirinin müavini, xarici işlər naziri David Zalkaliani ilə görüşüb.**

XİN-dən “Şərq”ə verilən məlumata görə, Gürcüstan Baş naziri İrakli Qaribaşvilinin ölkəmizə səfəri çərçivəsində baş tutan bu görüşdə nazirlər öncə təkbətək, daha sonra isə nümayəndə heyətlərinin iştirakı ilə geniş tərkibdə müzakirələr aparıblar.

Həmkarını səmimiyyətlə salamlayan nazir Ceyhun Bayramov mövcud səfərin iki ölkə arasında siyasi dialoqun davam etdirilməsi baxımından əlverişli imkan yaratdığını qeyd etdi. Ölkələrimiz arasında mövcud olan möhkəm tərəfdaşlıq əlaqələrinin daha da inkişaf etdirilməsinin əhəmiyyəti vurğulandı.

Nazir David Zalkaliani qonaqpərvərliyə görə təşəkkürünü ifadə etdi. Gürcüstan Baş naziri ilə Azərbaycan Respublikası Prezidenti arasında olduqca məhsuldar görüşün keçirildiyini qeyd edən nazir Zalkaliani, ölkələrimiz arasında mövcud olan strateji tərəfdaşlıq və əməkdaşlıq münasibətlərinin gələcəkdə dərinləşdirilməsinin əhəmiyyətini bildirdi. O, Gürcüstanın Azərbaycanın suverenliyi və ərazi bütövlüyünə dəstəyini qətiyyətlə vurğuladı, öz növbəsində Azərbaycanın da Gürcüstanın ərazi bütövlüyünə verdiyi dəstəyi xüsusilə qeyd etdi.

Nazir Ceyhun Bayramov 44 günlük Vətən müharibəsindən sonra bölgədə yaranan yeni reallıqlar, mövcud əməkdaşlıq imkanları, dövlətlər arasında münasibətlərin normallaşdırılması üçün yaranan unikal vəziyyət, habelə üçtərəfli bəyanatın icrası ilə bağlı məsələlər, Ermənistanın üçtərəfli bəyanatın həyata keçirilməsinə maneə törədən davranışı və revanşist bəyanatları, bu xüsusda Azərbaycanın mövqeyi barədə həmkarını məlumatlandırdı.

Nazirlər mövcud yeni reallıqlar fövqündə qarşılıqlı fəaliyyətin uyğunlaşdırılmasının önəmini qeyd etdilər. Tərəflər, həmçinin ikitərəfli gündəliyə daxil olan məsələlər, o cümlədən iqtisadi, humanitar, mədəniyyət, turizm və digər sahələrdə əməkdaşlığın inkişaf etdirilməsi üzrə fikir mübadiləsi apardılar.

*Görüşdə nazirlər, həmçinin qarşılıqlı maraq doğuran digər məsələlər ətrafında fikir mübadiləsi apardılar.*

# Qarabağda Prezidentin xüsusi nümayəndəsi var

### “Qaçqınkom” bundan sonra yalnız Agentlik kimi fəaliyyət göstərə bilər




Milli Məclisin plenar iclasında parlamentin İnsan hüquqları komitəsinin sədri Zahid Oruc təkliflə çıxış edib. Deputat bildirib ki, Qaçqınların və Məcburi Köçkünlərin İşləri Üzrə Dövlət Komitəsinin adı dəyişdirilməlidir. Onun sözlərinə görə, qələbə dövrünün qarşıya qoyduğu mühüm vəzifələrdən biri Qaçqınların və Məcburi Köçkünlərin İşləri Üzrə Dövlət Komitəsinin "Qayıdış və Quruculuq Komitəsinə" çevrilməsidir:

”Beləliklə, biz təkcə dövlət-hökumət institutlarını deyil, ictimai-siyasi leksikonumuzu, təhsil, mədəniyyət və ədəbiyyat sistemimizi, kitablarımızı, siyasi proqram və konsepsiyalarımızı parlaq Qələbəmizə uyğunlaşdırmalıyıq. Yeni milli kimlik, yeni qalib xalq və dövlət statusu bizdən fərqli ideologiya, yeni düşüncə və yeni hədəflər tələb edir”. Əslində, xeyli vaxtdır ”Qaçqınkom”un ümumiyyətlə ləğvi müzakirə olunmaqdadır. Əksəriyyət düşünür ki, qurum keçmiş qaçqın və məcburi köçkünlərlə bağlı bilgiləri, qeydiyyat sənədlərini müvafiq orqanlara təhvil verdikdən sonra öz fəaliyyətinə xitam verməlidir.

**Deputatın təklifini ”Şərq”ə dəyərləndirən professor Cümşüd Nuriyev deyib ki, Zahid Orucun parlamentdəki çıxışı iki hissədən ibarət idi.** Ekspertin sözlərinə görə, millət vəkili ilk növbədə ”Dağlıq Qarabağın azərbaycanlı icması”nın ləğvindən danışıb, sonra isə ”Qaçqınkom”un adının dəyişdirilməsini təklif edib: ”Hər iki məsələ ilə bağlı deputatın yanaşmasını uğurlu hesab edirəm. İcmanın ləğv edilməsi ilə Azərbaycan bir daha göstərdi ki, Qarabağda yaşayan ermənilərin ölkəmizdəki digər etniklərdən fərqi yoxdur. Qaçqınlarla bağlı Komitənin adının dəyişdirilməsi ideyası da uğurludur. Ancaq hesab edirəm ki, komitənin ayrıca qurum olmasına ehtiyac yoxdur. Dövlət Tikinti və Arxitektura Komitəsinin nəzdində fəaliyyət göstərən bir Agentlik kimi fəaliyyətinə imkan yaratmaq mümkündür. Qarabağda Prezidentin xüsusu nümayəndəsi var. Bütün dövlət strukturları öz işini görür və infrastruktur qurulur. Bütün bunların fonunda müvəqqəti məcburi köçkünlərlə bağlı qurum kimi Agentlik şəklində fəaliyyətini davam etdirə bilər. Yaxud da Z.Orucun təklif etdiyi adla Nazirlər Kabinetinin yanında publik hüquqi şəxs kimi fəaliyyət göstərər. Amma nəzərə alaq ki, adı dəyişilsə və hansısa qurumun nəzdinə verilsə belə fəaliyyət müddəti məcburi köçkünlər öz yurdlarına geri döndükdən sonra başa çatmış olacaq. Bu da hardasa 10 ilə yaxın zaman deməkdir. Məcburi köçkünlərin geri qaytarılması ilə bağlı dövlətiin konsepsiyası hazırdır. Qarabağda quruculuq işləri başlayıb. Yaxın gələcəkdə insanlarımız öz yurdlarına geri dönəcəklər. Şuşaya dönüşə start veriləndən sonra digər bölgələrə də qayıdış başlayacaq”.

**İsmayıl Qocayev**

# Gürcüstan səhv düşünür

## Zəngəzur dəhlizinin işə salınması Gürcüstanın tranzit əhəmiyyətini azaltmayacaq

Gürcüstan Baş naziri İrakli Qaribaşvili Azərbaycana gəlib. Prezident İlham Əliyev ölkəmizdə rəsmi səfərdə olan Baş naziri qəbul edib. Ölkə başçısı iki ölkə arasındakı münasibətləri diqqətə çatdırıb:

”Xalqlarımız arasında münasibətlər uzun tarixə əsaslanır, əsrlər boyu davam edən yaxşı qonşuluq və dostluq tarixinə əsaslanır. Hesab edirəm ki, bu, böyük dinamikanı nümayiş etdirən və faktiki olaraq bir çox sahələri əhatə edən cari münasibətlərimizin inkişafı üçün çox yaxşı zəmindir.

Bizim enerji və nəqliyyat layihələri kimi birgə layihələrin icrası üzrə yaxşı tariximiz var. Bu layihələr regionun siyasi, iqtisadi, nəqliyyat və energetika xəritəsini dəyişmişdir. Ölkələrimiz arasında güclü tərəfdaşlıq olmasaydı, bu layihələrin icrası mümkün olmazdı. Ötən ilin sonuncu günü Cənub Qaz Dəhlizi layihəsinin icrasının sonuncu günü idi. Bu layihə təkcə Cənubi Qafqaz regionunda yox, daha geniş Avrasiya regionunda ümumi inkişaf, sabitlik, proqnozlaşdırma, əməkdaşlıq üçün mühüm əhəmiyyət kəsb edir”.

Azərbaycan Prezidentinə təşəkkürlərini bildirən İ.Qaribaşvili deyib: ”Sizinlə yenidən Bakıda görüşmək böyük məmnuniyyət və şərəfdir. Şadam ki, bu gün Bakıdayıq. Siz qeyd etdiniz ki, bizim mükəmməl münasibətlərimiz var və münasibətlərimiz əsrlər boyu davam edir. Qeyd etdiyiniz kimi, biz birlikdə bəzi ən mühüm əhəmiyyət kəsb edən tarixi layihələri icra etmişik. Ona görə də biz münasibətlərimizi və qardaşlığımızı gücləndirəcək daha çox layihələrin birgə icrasını davam etdirməkdə tamamilə qətiyyətli və həvəsliyik. Bir daha mənim başçılıq etdiyim nümayəndə heyətini burada, Bakıda qəbul etdiyiniz





üçün Sizə minnətdarlığımı bildirmək istəyirəm. Mən fürsətdən istifadə edərək Sizin üçün münasib vaxtda bizi Tbilisidə ziyarət etmək üçün Sizi səfərə dəvət etmək istərdim”.

**Gürcü nazirin səfərini ”Şərq”ə şərh edən siyasi analitik Turab Rzayev vurğulayıb ki, son illər iki ölkə arasındakı əlaqələr ənənəvi olaraq qonşuluq, dostluq və qardaşlıq müstəvisindən xeyli uzaq düşüb:** ”Bəzi problemlər var. Bunların da böyük əksəriyyəti süni yaradılmış problemlərdir. Yəni bu problemi yaradanlar xaricdəki xüsusi xidmət orqanlarına çalışanlardır. Gürcüstan-Azərbaycan münasibətərində ən böyük problemi ilk növbədə kilsələr yaradır. Vaxtaşırı olaraq gah David Qarace kilsəsi ilə bağlı sərhədlərin delimitasiyası, gah da Nəriman Nərimanovun heykəlinin sökülməsi məsələsi gündəmə gəldi. Gürcüstanda xaricdən maliyyələşən və xüsusi xidmət orqanlarına bağlı olan partiyalar və siyasətçilər var.

Məsələn, Gürcüstanda ”Vətənpərvərlər İttifaqı” adlı partiya nümayəndələri xaricdəki xüsusi xidmət orqanlarından maliyyələşirlər və iki ölkə arasındakı münasibətləri kəskinləşdirməyə çalışırlar. Bir neçə gürcü ictimai-siyasi xadimi də bu yoldadır və iki ölkənin əlaqələrinə daimi zərər vurur. Lakin belə olmalı deyil”.

**Analitik qeyd edib ki, Azərbaycan tarixin ən çətin vaxtlarında, Gürcüstanın Rusiya tərəfindən işğalı vaxtı Gürcüstana təbii qaz verirdi**: ”Dövlətimiz Gürcüstana müxtəlif yardımlar edib. Hətta bu yaxınlarda koronavirusla əlaqədar olaraq Gürcüstanı oksigen balonları ilə təmin etdik. Belə bir dövrdə qonşu ölkə ilə münasibətlərimiz daha fərqli səpkidə olmalıdır.

Gürcü sərhədçiləri tərəfindən Azərbaycan ictimaiyyətindəki Gürcüstanın irqçi, faşist partiya və siyasi xadimləri tənqid edən insanların pasportlarına ölkəyə giriş qadağası qoyulur. Həmin vətəndaşlarımızın Gürcüstanda nə qədər qohumları və ailə üzvləri yaşayır. Onların hüzn və toy mərasiminə gedə bilmirlər. Bu nə qədər qeyri-insani, dostluqdan, qardaşlıqdan və mehriban qonşuluq siyasətindən uzaq məsələdir. Düşünürəm ki, bu problemlər son bir neçə ildə iki ölkə arasında şiddətlənib, artıq müttəfiqlik və partnyorluq münasibətlərindən çox uzaqdır. Məhz buna görə də Gürcüstanın Baş naziri bu münasibətləri hansısa şəkildə səhmana salmaq üçün ölkəmizə gəlib. Çünki münasibətlər yenidən dostluq-qardaşlıq, müttəfiqlik və qonşuluq formasına qayıdacaq kimi görünmür”.

**T.Rzayevin qənaətincə, Gürcüstanı narahat edən digər məsələ Zəngəzur dəhlizidir:** ”Düşünürlər ki, bu dəhliz açıldıqdan sonra Gürcüstanın strateji əhəmiyyəti azalacaq. Fikrimcə, bu, yenə də iki ölkənin dostluq və qardaşlığını istəməyən qüvvələr tərəfindən ortaya atılmış növbəti provokasiyadır. Çünki bütün enerji xətlərimiz, Bakı-Tbilisi-Ceyhan, xüsusilə Bakı-Ərzurum qaz kəməri, TANAP, TAP-hamısı Gürcüstan üzərindən nəzərdə tutulub. Yəni boru xətlərinin yerini dəyişəsi deyilik. Bundan əlavə, Bakı-Tbilisi-Qars dəmir yolu xətti çəkilir. Bu xəttin tamamlanması üçün Gürcüstana milyardlarla kredit vermişik.

Əslində indiyə qədər Bakı-Tbilisi-Qarsın fəaliyyətinə maneçilik ən çox Gürcüstan ərazisində idi. Gürcüstan hökuməti çalışıb bu durumu sürətləndirməlidir ki, dəmir yolu xəttinin inşası tamamlansın, məhz cənubdan Naxçıvana əlavə dəmir yolu xətti çəkməyimizə ehtiyac qalmadan həm Bakıdan Gürcüstana, həm də Azərbaycandan-Türkiyəyə gedən yol fəaliyyət göstərsin.

Zəngəzur dəhlizinin işə salınması Gürcüstanın tranzit əhəmiyyətini azaltmayacaq. Məqsədimiz Çindən Avropaya, Avropadan-Çinə gedən nəqliyyat dəhlizinin Cənubi Qafqazdan keçməsidir. Belə olan halda nəinki daşınmalar və tranzit yükləri azalacaq, həmçinin Bakı-Tbilisi-Qars, həm də Zəngəzur üzərindən dəfələrlə artacaq.

Əslində Gürcüstan Azərbaycan və Ermənistanla olan münasibətindən istifadə edib daha çox barışdırıcı rolunu oynamalı, nəinki kommunikasiya xətlərinin açılmasından narahat olmalıdır. Düşünürəm ki, Qaribaşvilinin səfərində məhz bu nüanslar müzakirə olunub. Səfərin məqsədi də budur”.

**Yeganə Bayramova**

# Hər gün Moskvanın qapıları döyülür

## *Ermənistan hakimiyyəti Kremli “su yoluna” döndərib*

Ermənistan parlamentinin sədri Ararat Mirzoyan 16-18 may tarixlərində Moskvaya rəsmi səfər edəcək. Bu barədə Rusiya Xarici İşlər Nazirliyi məlumat yayıb. "Parlamentlərarası əlaqələr inkişaf edir. Rusiya parlament nümayəndə heyəti İrəvanda 24 aprel tədbirlərində iştirak etdi. 16-18 may tarixlərində isə Arorat Mirzoyan Ermənistana səfər edəcək", - açıqlamada deyilir.

*Mövzuya münasibət bildirən Sosial Tədqiqatlar Mərkəzinin baş məsləhətçisi, siyasi-şərhçi Tural İsmayılov ”Şərq”ə açıqlamasında vurğulayıb ki, Ermənistanda Nikol Paşinyan hakimiyyətə gəldikdən sonra Rusiya ilə münasibətlər kəskinləşib*. T.İsmayılov əlavə edib ki, nəticədə Ermənistanda rus mədəniyyətinin və rus dilinin sıxışdırılması prosesi başlanıldı: ”Eyni zamanda Rusiya ilə münasibətlərin normallaşacağı fikrini söyləyən, habelə Rusiya ilə əlaqələrin Ermənistanın gələcək taleyi üçün mühüm və vacib olduğunu vurğulayan bir sıra siyasətçilər təqiblərə məruz qaldı və



**“Paşinyan erməni cəmiyyətini yenidən toparlamaq üçün Rusiyaya ümid bəsləyir”**

həbs olundu. Bütün bunlar Ermənistan-Rusiya münasibətlərini korladı. Baxmayaraq ki, Ermənistan Avrasiya İqtisadi İttifaqının üzvüdür. Eyni zamanda Rusiyanın 102-ci hərbi bazası Gümrü şəhərində yerləşir. Amma istənilən halda Ermənistanın Rusiya ilə münasibətləri Paşinyan hakimiyyətindən sonra siyasi mütəffiqlikdən daha çox məcburiyyət qarşısında Rusiyaya təslim olmaq kimi dəyərləndirilməlidir”.

**Siyasi şərhçi əlavə edib ki, Ermənistan pis vəziyyətə qoyduğu erməni cəmiyyətini yenidən toparlamaq üçün Rusiyaya ümid bəsləyir:** ”Soros tərəfindən yetişdirilən və Qərblə gizli şəkildə əlaqəyə girən Ermənistan hakimiyyəti Ermənistan-Rusiya münasibətlərini daha da korladı.Təbii ki, 44 günlük Vətən müharibəsindən sonra Ermənistan öz məhv etdiyi dövlət atributlarını və pis vəziyyətə qoyduğu erməni cəmiyyətini yenidən toparlamaq üçün Rusiyaya ümid bəsləyir. Baxmayaraq ki, erməni lobbisi vasitəsilə Paşinyan onu yetişdirən Qərb siyasi institutları ilə hələ də gizli və yaxud da nümayişkaranə şəkildə əlaqələrə malikdir. Amma bütün bunların fonunda Rusiyasız Ermənistanın bir heç olduğunu dərk etdiyi üçün Rusiyaya da yaşıl işıq yandırmağa çalışır. Təbii ki, bunun fonunda həm Paşinyan, həm Paşinyanın təmsil olunduğu iqtidar komandasının bir sıra yüksək rütbəli nazirləri daim Rusiyaya yalvarır. Rusiyaya səfərlər edir və Rusiyadan imdad diləməyə çalışır. Arorat Mirzoyanın da 16-18 may tarixində Rusiyaya səfəri Ermənistan siyasi elitasının gerçəkləşəcək növbədənkənar parlament seçkilərindən əvvəl Rusiyaya növbəti məddahlıq jestlərindən biri kimi qiymətləndirilməlidir. Nikol Paşinyanın tapşırığına əsasən, həm Paşinyanın, həm də onun komandasına daxil olan adamların daimi Rusiyaya səfər etməsi, guya ki, Paşinyanın hakimiyyətə gələcəyi təqdirdə Rusiya ilə əlaqələri möhkəmləndirməklə bağlı mesajlar verməsi ilə xarakterizə olunur. Təbii ki, Rusiya regionun önəmli dövlətlərindən biridir. Düşünürəm ki, Nikol Paşinyan və onun komandasına daxil olanların Rusiya səfərlərinin arxasında da hansısa çirkin və gizli niyyətlər yatdığı aydın başa düşülür”.

**Aynurə Pənahqızı**



# Əlvida, şair!

## Fikrət Qoca Birinci Fəxri Xiyabanda dəfn olundu

**"Bir durna təkləndi, bir şam qaraldı,**
**Bir dalğa qıy çəkib itdi dənizdə...**
**Şeir rübabından bir tel qırıldı,**
**Bir səs çatışmayır xoş nəğməmizdə..."**

Bu şeiri Xalq şairi Fikrət Qoca 1956-cı ildə görkəmli şairimiz Səməd Vurğunun vəfatı münasibəti ilə qələmə almışdı. Dünən bu şeir Fikrət Qocanın son məkanında şairin özü üçün səsləndirildi...

Fikrət Qoca mayın 5-də, mübarək Ramazan ayının səhərində həyata gözlərini yumdu, əbədiyyətə qovuşdu. 85 yaşında dünyasını dəyişən şair Birinci Fəxri Xiyabanda dəfn olundu. Mərhumun dəfn mərasimində tanınmış ictimaiyyət və mədəniyyət nümayəndələri, qələm dostları, media nümayəndələri və ailə üzvləri iştirak etdilər. Amma pandemiya şəraiti nəzərə alınaraq, şairlə vida mərasimi keçirilmədi. Bu da şair qismətiymiş... Fikrət Qoca həyatını necə ağayana, sakit, səssiz-küysüz, göstərişdən uzaq, sadə və səmimi yaşadısa, dünyadan gedişi də o cür oldu...

Xalq şairi 1935-ci il avqustun 25-də Ağdaş rayonunun Kotanarx kəndində anadan olub. 1964-cü ildə Moskvada Maksim Qorki adına Ədəbiyyat İnstitutunu bitirib. Əsərləri 1956-cı ildən mətbuatda çap edilir. Azərbaycan Radio və Televiziya Verilişləri Komitəsində, "Azərbaycan gəncləri" qəzetində, "Azərbaycan" jurnalında fəaliyyət göstərib. Azərbaycan Yazıçılar Birliyinin beynəlxalq əlaqələr üzrə məsul katibi olub. 1987-ci ildən "Qobustan" incəsənət toplusunun baş redaktoru idi. 1998-ci ildən Azərbaycan Yazıçılar Birliyinin birinci katibi kimi çalışırdı. 1990-cı illərdə yazdığı "Oddan keçənlər", "İnsan səviyyəsi", "Adi həqiqətlər" və s. poemalarında Azərbaycanda gedən azadlıq mübarizəsindən bəhs olunur. Onun bir sıra nəsr əsərləri də var. "Ölüm ayrılıq deyil", "Hələlik, - qiyamətədək" povestlərində 1990-cı ilin 20 Yanvar hadisələri əksini tapıb. Mixail Lermontov, Taras Şevçenko, Eduard Mejelaytis, İ.Volker, X.Risal, İ.Taufer və başqalarından tərcümələri var. Əsərləri bir sıra xarici dillərə tərcümə olunub. Gənclərin qəhrəmanlıq və fədakarlığından bəhs edən "Təkərlər geri fırlanır", "Yaralı çiçəklər" və "Rəssam düşünür" poemalarına görə mükafatlara layiq görülüb. "Şöhrət" və "İstiqlal" ordenləri ilə təltif olunub. Bir çox şeirlərinə dillər əzbəri olmuş mahnılar bəstələnib.





Bu gün də minlərlə oxucu Fikrət Qocanı böyük istedad sahibi, gözəl şair kimi sevir, şeirlərini oxuyur. Çünki Fikrət Qocanın yaradıcılığı heç vaxt köhnəlməyib, hər dövr üçün aktual olub. Onu yaxından tanıyanlar yalnız bənzərsiz qələm sahibi, qəlbə toxunan intellektual şeirlər müəllifi deyil, həm də özü-sözü bütöv, alicənab və gözü tox şəxsiyyət, etibarlı dost olduğunu yaxşı bilirdilər. Sənət aləmində özünə-sözünə sadiq qalmaq əsas şərtlərdən biri sayılır. Fikrət Qoca bu gerçəkliyi ilk addımlarından çox gözəl başa düşmüşdü...

Şairin dəfn mərasimində çıxış edənlər də Fikrət Qoca ucalığından, saflığından ağız dolusu danışdılar. El ağsaqqalının, həqiqi ziyalının ölümündən kədərləndiklərini bəyan etdilər. "Dünyada insan ömründən şirin heç nə kəşf edilməyib" deyən şairi son mənzilə yola saldılar.

**AYB-nin katibi, yazıçı, "525-ci qəzet"in baş redaktoru Rəşad Məcid məzar başında bildirdi ki, Fikrət Qocanın ölümü Azərbaycan ədəbiyyatına, poeziyasına və mədəniyyətinə ağır itkidir:** "Fikrət Qoca 60-cı illərin poeziyasına çox yeniliklər gətirdi. Tərcümə olunmuş şeirlərinə dünya oxucularının da marağı böyük idi. Azərbaycan ədəbiyyatını layiqincə təmsil edən böyük qələm sahibi, gözəl insan, etibarlı dost idi. Allah rəhmət etsin, ruhu şad olsun".

**Daha sonra AYB sədri, Xalq yazıçısı Anar Rzayev göz yaşları içində "ən yaxın dostum, sirdaşım" dediyi Fikrət Qoca ilə bağlı duyğularını paylaşdı:** "Mənim üçün danışmaq çox ağırdır. Fikrət 60 ildən artıq mənim etibarlı dostum, qardaşım idi. Bütün sınaqlardan birlikdə çıxmışdıq. Heç vaxt dostluğunu, sədaqətliliyini itirmədi. Əsl ziyalı kimi insanlara ancaq yardım etmək haqqında düşünürdü. Allah rəhmət eləsin".

**Əməkdar artist Ağalar Bayramov Fikrət Qocanı itirməyin onun üçün çox ağır olduğunu söylədi və şairin şeirlərindən birini səsləndirdi:** "O, daim yaşayacaq, çünki yazıb-yaradıb. Alman fəlsəfəsinin banisi Kant deyirdi ki, "musiqi insana zövq versə də, əslində heç nə vermir. Poeziya isə həm ruhun qidasıdır, həm də tərbiyə məktəbidir". Mən bu acı xəbəri eşidəndə çox sarsıldım. Fikrət Qocanın çox şeirləri mənim repertuarımda özünə məkan tapıb".

**Millət vəkili, Xalq şairi Sabir Rüstəmxanlı da mərhum şair haqqında düşüncələrini bölüşdü:** "Şeirimizin ağsaqqalını, müasir ədəbiyyatımızın görkəmli nümayəndəsini, 85 illik şərəfli ömür yaşamış dostumuzu, qardaşımızı itirdik. Fikrət 60-cı illərdə ədəbiyyata gələndə elə qoca idi. Amma 85 yaşında dünyasını dəyişəndə cavan idi. Bütün ömrü boyu gənclik eşqi ilə yazıb-yaratdı. Şeirləri dillər əzbəri olmaq bir yana, həm də yüzlərlə mahnıya çevrildi. Mərhum şair Azərbaycan xalqının mənəvi dünyasını mahnıya çevrilmiş sözləri ilə bəzədi. Fikrət Qoca həm də gözəl nasir idi. Deyirdi ki, "birinin əli qabar olur, digərinin beyni". O, beyni qabar olanlardan idi. Biz azadlıq şüarı il meydana çıxanda, şair mübarizəni şeirləri ilə aparırdı. 44 günlük müharibədə elə bir gün olmadı ki, Fikrət Qocanın bir şeirini görməyim. O, 85 yaşına rəğmən "cəbhədəydi". Xeyirxah adam idi, hamının yaxşılığını istəyirdi. Fikrət bizim üçün ölməzdi. Məkanı cənnət olsun".

Əlbəttə, ölüm haqdır. Bir gün gələn, bir gün mütləq gedər. Amma o da həqiqətdir ki, xalqını, Vətənini sevən şairlər, söz sənətkarları heç zaman ölmür, unudulmur. Daim yaddaşlarda, xatirələrdə diri və canlı qalırlar. Elə Fikrət Qocanın özü də belə düşünürdü:

**"Ölüm də, olum da, bunlar bir yana,**
**Bu adi qanunu mən də danmıram.**
**Şair nəğmə kimi gəlir cahana,**
**Nəğmə ölümünə mən inanmıram".**

**P.S.** *"Şərq" qəzeti olaraq biz də Xalq şairi Fikrət Qocanın vəfatı ilə əlaqədar mərhumun ailə üzvlərinə, yaxınlarına, qələm əhlinə və bütün Azərbaycan xalqına baş sağlığı veririk. Nur içində yatsın.*

**İsmayıl Qocayev**

# Status məsələsinin müzakirəsinə dönüş yoxdur

## "Fransa ermənipərəst mövqeyi ilə Azərbaycanla olan münasibətlərinin üstündən xətt çəkdi"

Fransanın Ermənistandakı səfiri Conatan Lakot "Armenpress" agentliyinə müsahibəsində bildirib ki, Rusiya və Fransa prezidentləri tezliklə Qarabağ məsələsinin davamlı həllinə yönəlmiş konkret təşəbbüslərlə çıxış edəcəklər. İki ölkənin prezidentləri Vladimir Putin və Emmanuel Makron aprelin 26-da telefonla danışıblar.



Prezidentlərin telefon danışığından sonra Kremllə Parisin mətbuata açıqlamalarında fərq ortaya çıxmışdı. Kremldən yayımlanan açıqlamada prezidentlərin müxtəlif mövzuları, o cümlədən Ukrayna və Qarabağdakı vəziyyəti müzakirə etdikləri bildirilib. Parisin mətbuata ötürdüyü açıqlamada isə fərqli cümlə yer alıb: "Prezidentlər Qarabağla bağlı "yeni təşəbbüslər" hazırlanması barədə razılığa gəliblər".

Kremlin açıqlamasında məlum cümlə yox idi. Ancaq Kreml Parisdən "yeni təşəbbüslərlə" bağlı cümləyə etiraz etmədi. Yəni prezidentlər hər hansı "yeni təşəbbüsləri" müzakirə etməmişdilərsə, Kreml Parisin açıqlamasına düzəliş etməliydi. Məsələn, Rusiya prezidentinin fəal mətbuat katibi Peskov məsələyə aydınlıq gətirə bilərdi. Bunlar edilməyiblərsə, deməli, prezidentlər həqiqətən Qarabağla bağlı "yeni təşəbbüslər" barədə nəsə danışıblar. Sadəcə, Kreml bu cümləni ona görə yaymayıb ki, Bakının sualları ilə üzləşməsin. Parisi isə Bakının necə reaksiya verəcəyi çoxdan maraqlandırmır. Fransa Prezidenti Emmanuel Makron tərəfini ilk gündən seçib. Ona görə də açıqlamada "yeni təşəbbüslər" cümləsinə istinad ediblər.

Bəs, Paris "yeni təşəbbüslər" dedikdə nələri nəzərdə tutur?

**"Atlas" Araşdırmalar Mərkəzinin rəhbəri, politoloq Elxan Şahinoğlunun "Şərq"ə açıqlamasına görə, Azərbaycanın İkinci Qarabağ müharibəsində qalib gəlməsi, Türkiyənin Cənubi Qafqazda möhkəmlənməsi Fransanı açıq-aşkar narahat edir:** "Məlumdur ki, Fransa ermənipərəst mövqeyini daha da gücləndirib. Müharibə zamanı və müharibədən sonra bu mövqelərini gizlədə bilmirlər. Guya həmsədr ölkədir. Lakin bunu nə müşahidə edir, nə də görürük. İndi də "yeni təşəbbüslər" mövzusunu gündəmə gətiriblər. Aydındır ki, Qarabağın statusu məsələsini müzakirə etmək istəyirlər. Bu isə bizi maraqlandırmır, məsələni böyük ölçüdə həll etmişik. Ermənilərin yaşadığı Qarabağ ərazisi son dərəcə kiçilib, onlara hansı status verilə bilər ki? Sadəcə suyu bulandırmağa çalışırlar. Razı deyiliksə, heç bir "yeni təşəbbüs" müzakirə edilə bilməz".

**E.Şahinoğlu qeyd edib ki, Fransa ermənipərəst mövqeyi ilə Azərbaycanla olan münasibətlərinin üstündən xətt çəkdi:** "Halbuki, Emmanuel Makron prezident olana qədər Fransa-Azərbaycan münasibətlərində inkişaf var idi, qarşılıqlı səfərlər olurdu. Makron bütün bunları aradan qaldırdı. Nə zamana qədər ki, Fransa belə mövqeyindən əl çəkməyəcək, Azərbaycan-Fransa münasibətlərini də normallaşdırmaq çətin olacaq.

"Yeni təşəbbüs"lərə gəlincə, Fransa bu məsələni Moskva ilə müzakirə edir, yəqin ki, Vaşinqtonla da müzakirə edəcək. Amma "yeni təşəbbüs" bizi maraqlandırmır. Vaxtilə 26 il işğala göz yumdular, ermənilərə söz demədilər, indi bizə təzyiq etməklə nəsə qopartmağa çalışacaqlar. Bu da alınan deyil!".

**Yeganə Bayramova**

# Beynəlxalq güclər bütün cəbhələrdə fəallaşıblar

*Çünki bilirlər ki, gələn aydan etibarən Minsk qrupu ilə bütün əlaqələrimizi kəsəcəyik*

**Qarabağ münaqişəsi sona çatsa da, Fransa və Rusiya illərdir yarıtmaz fəaliyyət göstərən ATƏT-in Minsk qrupunu gündəmə gətirmək üçün can atırlar. Halbuki, Azərbaycan Prezidenti dəfələrlə münaqişənin başa çatdığını, tarixə qovuşduğunu vurğulayıb. Rəsmi şəkildə ATƏT-in Minsk qrupunun "kitabının bağlandığı" açıq şəkildə bəyan edilib.**

Ekspertlərin fikrincə, Fransa və Rusiyanın Qarabağla bağlı Azərbaycanın iştirakı olmadan müzakirə aparmaları yolverilməzdir. Bu ölkələrə ATƏT-in Minsk qrupu çərçivəsində mandat verilmişdi ki, münaqişənin nizama salınmasında yaxından iştirak etsinlər. Lakin Fransanın vasitəçilik etdiyi missiya ermənilərin başına sığal çəkməklə prosesi 30 ilə yaxın uzatmaq oldu.

İndiki məqamda ATƏT-in Minsk qrupuna "ikinci nəfəs" vermək cəhdləri boşunadır. Şübhəsiz ki, həmsədrlik institutunun yenidən boy göstərməsi revanş hissi ilə alışıb yanan İrəvanın da marağındadır.

**Mövcud durumu "Şərq"ə dəyərləndirən siyasi elmlər doktoru, politoloq Cümşüd Nuriyev vurğulayıb ki, Fransa və Rusiyanın ATƏT-i yenidən gündəmə gətirmələrinin arxasında şəxsi maraqları dayanır:** "Məlumdur ki, qabaqdan Emmanuel Makronun seçkisi gəlir. O, Fransada yaşayan erməni diasporundan yararlanmağa çalışır. Çünki Nikola Sarkozidən gözü qorxub, seçkilərin keçirilməsi üçün böyük miqdarda pul lazımdır. Həmin pulu Fransada yaşayan ermənilərdən əldə etmək istəyir. Ona görə də həmsədrlik institutunun aktivləşməsini istəyir. Digər tərəfdən Qarabağ münaqişəsinin həllində Türkiyənin rol oynaması xüsusilə Makronu həddindən artıq narahat edir. Bu baxımdan Fransada Türkiyəyə qarşı siyasi qısqanclıq var. Türkiyənin Cənubi Qafqazda mövqeyinin güclənməsi ilə özünü Avropanın baş diplomat ölkəsi hesab edən Fransa paxıllıq xəstəliyinə tutulub.

Rusiya isə Paşinyanı hakimiyyətdən uzaqlaşdırmaq istəyir, eyni zamanda buna gücü çatmadığı üçün Paşinyandan bir növ yararlanmağa çalışır. Ona görə də Azərbaycana qarşı ikili siyasət yürüdür. Ölkəmizin yanında olan Pakistan, Türkiyə və İsrail Rusiyanı çətin duruma salıb".

C.Nuriyev qeyd edib ki, Rusiya Cənubi Qafqazdakı siyasi mövqeyini itirmək üzrədir: "Bilirlər ki, Paşinyan yenidən seçiləcək və Ermənistanın maraqlarına uyğun çıxış edəcək: Azərbaycanla yaxınlaşacaq, Paşinyan bununla bağlı mesajlar da verir. Yaxınlaşmanın da nəticəsində Rusiyaya üçüncü tərəf kimi ehtiyac qalmayacaq. Bu baxımdan rəsmi Moskva əndişəlidir. Azərbaycan 200 il ərzində Rusiyanı yaxşı tanıyır, həmçinin Ermənistan Rusiyanın "əli" ilə gəlib torpaqlarımızda özlərinə dövlət qura biliblər. Lakin ermənilər da yorulublar. Çünki Rusiyanın siyasi həyasızlığı heç bir sərhəd tanımır. Onlar zaman-zaman erməniləri alçaldıblar, indi də lap alçaldırlar. Ermənilər də istər-istəməz özlərində bir balaca güc hiss edirlər, xüsusilə Qarabağla bağlı problemi həll etmək üzrədirlər. Qarabağ siyasi, iqtisadi və hərbi cəhətdən ermənilərin əl-ayağını bağlamışdı.



**"Lavrovun mayın 10-11-i Bakıya gəlməsinin də pərdə arxasında bu dayanır"**

Onlar bu ağır yükdən qurtulmaq üzrədirlər və başa düşürlər ki, Azərbaycan və Türkiyə ilə bərabər çalışmasalar, Ermənistan dövlət kimi varlığını itirəcək".

**Analitikin sözlərinə görə, Fransa və Rusiya çalışır ki, ATƏT-in "əli" ilə indi rus sülhməramlıların nəzarətində olan torpaqlarımızı yenidən 20-30 il öz nəzarətlərində saxlasınlar: "Düşünürlər ki, bu müddət ərzində bəlkə Azərbaycanda başqa qərar qəbul olundu.**

Açığı, ATƏT-in gündəmə gətirilməsində ABŞ-ın da marağı var. Amerika da Cənubi Qafqaza girmək istəyir. Ona görə çalışırlar ki, yenidən ATƏT-i reanimasiyadan çıxartsınlar və onu ayağa qaldırıb fəaliyyətə başlasınlar. Bu, mümkünsüzdür, nail olsalar belə dövlətimizin bundan sonra Minsk qrupuna ehtiyacı yoxdur. Azərbaycan ATƏT-lə hansısa sövdələşməyə gedən deyil. Ölkəmiz 6 aydan çoxdur ki, ATƏT-lə əlaqə qurmur. Beynəlxalq hüquqa görə, gələn aydan etibarən Minsk qrupu ilə bütün əlaqələrimizi kəsəcəyik. Ona görə də fəallaşıblar. Lavrovun mayın 10-11-i Bakıya gəlməsinin də arxasında bu dayanır. Azərbaycan Prezidenti, xalqı və ordusuna qarşı təbliğat aparılır, daxildə qarşıdurma yaratmaq istəyirlər. Rusiya və Fransa Azərbaycanla Türkiyəyə qarşı bütün cəbhələrdə hücuma keçib. Lakin bunların hər biri əbəsdir. Artıq qatar getdi. Rusiya barışmalıdır ki, gedən qatara sakitcə əl sallasın. Yoxsa Cənubi Qafqazı yox, Şimali Qafqazı da itirə bilər".

**Yeganə Bayramova**

---

# "Ramazana elmi izah verilməməlidir"

Hazırda müsəlman aləmində müqəddəs sayılan Ramazan ayındayıq. Artıq bir neçə gün sonra bu ay sona çatacaq. Milli Azadlıq Hərəkatının lideri, eks-prezident Əbülfəz Elçibəy də hələ 22 il öncə Ramazan haqda öz fikirlərini səsləndirib.

## Əbülfəz Elçibəy: "Namaz da, oruc da düşüncələrimizdə Allahı, Ona gedən yolu dərk etmək və o yolla yaşamaq üçündür"

*"Şərq" xəbər verir ki, Bəyin "Ramazan" ayı barədə düşüncələri "Zaman" qəzetində nəşr olunub. Yazı "İbadətin səbəbi axtarılmaz" başlığı ilə yayımlanıb. Əbülfəz bəy deyib ki, Ramazana müxtəlif adamlar, müxtəlif məntiqlərdən yanaşırlar:* "İslamın bu hökmünə dünyəvi, elmi, fəlsəfi məntiqdən baxmaq məncə yanlışdır. Məsələn, deyirlər ki, oruc tutarkən mədə istirahət edir, bədəndəki bəzi mikroblar ölür və s. Guya, orucu bunlara görə tutmaq lazımdır. Axı bu tibbi izahdır, başqa sözlə elmi-dünyəvi izahdır. Ramazana elmi izah verilməməlidir. Ona çağdaş elmlə izah vermək əks nəticələr verər, adamları çaşdıra bilər.

Ramazan bir din sistemidir. Ona dini baxışla baxacaqsan. Dinin baxışı isə ehkamlar üzərində qurulub. Orada səbəb axtarmaq yanlışdır. Dini ehkamı icra etmək üçün elmin nailiyyətlərini əsas götürmək olmaz. "Biz niyə oruuc tuturuq" sualının bir cavabı var: "Çünki o, Allahın əmridir". Bu ehkamların səbəbi axtarılmaz. Ona görə ki, onun səbəbini biz bilmərik".



**"Allahın buyurduğu kimi yaşayan və mübarizə aparan xalq həmişə qalib gələcəkdir"**

**Ə.Elçibəy onu da əlavə edib ki, Allah tərəfindən insanların boynuna bir borc qoyulubsa, o, danışıqsız yerinə yetirilməlidir:** "Niyə qoyulub, nə səbəbə qoyulub? Bunu Allah bilər. Təsəvvür edin, "Quranı-Kərim" şərh olunmur, təfsir edilir. Təfsir isə izah deyil, sadəcə olaraq "Mən belə başa düşürəm" deməkdir.

Elə "Qabusnamə"nin də islama vurduğu zərbənin kökünü Allahın ehkamlarına dünyəvi məntiqdən baxmasında axtarmaq lazımdır. Məsələn, "Qabusnamə"də deyilir ki, namaz qılmaq təmizlikdir. Axı bu belə deyil. Namaz qılmaqla ruhunu təmizləyirsən. Allahla ünsiyyətə hazırlaşırsan. Onun qarşısına gedirsən. Ona görə də həm ruhən, həm də cismən təmiz olmalısan. Namaz idman deyil. İdman olsaydı, o böyük Qüdrət sahibi "gündə beş dəfə idman eləyin" - deyərdi.

Namaz da, oruc da düşüncələrimizdə Allahı, Ona gedən yolu dərk etmək və o yolla yaşamaq üçündür.

İslamda qadağa, hədə və zordan daha çox insanın qarşısına qoyulmuş təhəhhüd və müəyyən qədər də məsuliyyət var. Bu təhəhhüd və məsluyyətləri daim hiss etdirmək üçün hədə və zor yoxdur, təklif var. Allah insanı sevdiyindən yaradıb və sevdiyinin yolundan sapmaması üçün təkliflər edir. Bundan sonra xəbərdarlıq edir ki, bu yolla getməsən, günaha batarsan, zərər çəkərsən. İslamın bizə təlqin etdiyi Allahı dərk budur.

İnsan Ramazanda bir ay dünyanın zovq-səfasından şüurlu olaraq imtina edir. Bu da nəfsinə hakim olmağa gətirir. Nəfsinə hakim olan isə hər şeyə hakim olar. İnsan nəfsinə hakim olduqca var-dövlət, quduzluq, hikkə, məkr kimi naqisliklərdən uzaqlaşır, uzaqlaşdıqca təmizlənir, təmizləndikcə Allaha yaxınlaşır. Bütün prinsip buna əsaslanır.

Ayinlərin heç birində, o cümlədən orucluqda da heç bir əzab-əziyyət yoxdur. İnsanlar oruc tutarkən özünü dar ağacının qarşısındakı kimi hiss etmir. Əksinə, Tanrı qapısına daha da yaxınlaşmaqdan ləzzət duyur. İslam qorxu hissi aşılayan din deyil, əksinə, insan qəlbindən xofu çıxardandır. İnsanların əksəriyyəti qorxu hissi ilə yaşayır: təbiət hadisələrindən, vəhşi heyvanlardan, ölümdən qorxur. İslam dini böyük bir sistem kimi bu qorxu hisslərini insanın qəlbindən çıxarmağa çalışır. Hər şeyin Allahdan olduğunu aşılayır. Buna iman gətirən insanın qəlbindəki Allah qorxusundan başqa bütün qorxu hissləri çıxır. Hətta ölümdən də qorxmur. Düşmənlə üz-üzə gələn imanlı insan ölümün Allahın əlində olduğuna inandığından düşmən gülləsindən qorxmur, cəsarətlə vuruşur.

Son illər gənclərimizin xürafata deyil, həqiqi islama könüldən bağlılığı çox sevindirici haldır. İnanıram ki, Allahın buyurduğu kimi yaşayan və mübarizə aparan xalq həmişə qalib gələcəkdir. Azərbaycanın əsl nicatı məhz bu cür halal düşüncəli, Allah yolunu tutan gəncliyin yetişməsi ilə əldə ediləcək".

**Samirə Ərəblinski**

# Muradovun geri çağrılması təəccüblü deyil

**“Hətta daha bir neçə zabitin də dəyişilməsi mümkündür”**



**Rusiyanın Qarabağdakı sülhməramlı kontingentinin komandiri, general-leytenant Rüstəm Muradov geri çağrıla bilər. Bu barədə məlumat verən Ermənistanın ”Joğovurd” qəzeti yazır ki, onun yerinə başqa generalın təyinat alması ehtimalı var.**

”Razılaşmaya əsasən, Rusiya tərəfi 6 aylıq müddət bitdikdən sonra sülhməramlı kontingentin komandirini dəyişə bilər”, - deyə mətbu orqan bildirir.

Hərbi ekspert Vladimir Yevseyev komandirin rotasiyasının mütləq şərt olmadığını və Muradovun xidmətini davam etdirə biləcəyini qeyd edib.

Rusiya KİV-i isə Rüstəm Muradovun əvəzinə başqa hərbçilərin də namizəd olduğunu iddia edir. Rüstəm Muradovun namizədliyini Rusiya Baş Qərargahı uzunmüddətli araşdırmalardan sonra Müdafiə naziri Sergey Şoyquya təqdim edib.

**Bu barədə ”Şərq”ə danışan hərbi ekspert Ədalət Verdiyev düşünür ki, Muradovun geri çağrılmasında qeyri-adi bir məqam yoxdur:** ”Ölkə xaricində yerləşən istənilən hərbi kontingent sülhməramlı və ya başqa məqsədlə xidmət etməsindən asılı olmayaraq müəyyən müddətədək fəaliyyət göstərir. Azərbaycan üçün bu müddət adətən 6 ay olur. Yarım ildən sonra həmin hərbi kontingent rotasiya qaydasında dəyişir. Bunu Rusiya tərəfi də bilirdi. Dediyim kimi, Muradovun geri çağrılması təəccüblü deyil. Hətta daha bir neçə zabitin də dəyişilməsi mümkündür”.

**Kənan**



# Nəşi 220 gün sonra tapıldı

## Şəhidimiz Mingəçevirdə torpağa tapşırıldı

**Mingəçevirdə doğulan Pərviz Tağıyev kiçik yaşlarından hərbi sahəyə maraq göstərib. Vətən müharibəsi başlayan gündən MAXE (müddətdən artıq xidmət edən - red.) kimi döyüşlərə qatılıb.**

Pərviz Murov yüksəkliyi, Tərtər rayonunun Suqovuşan kəndi istiqamətində gedən ağır döyüşlərdə iştirak edib. Onunla yaxınları müharibənin ilk günlərində əlaqə saxlaya biliblər. Sonra isə əlaqə tam kəsilib. Qorxmaz, igid gəncin nəşi ölümündən təxminən 220 gün sonra Tərtər-Suqovuşan istiqamətində tapılaraq ailəsinə təhvil verilib.

*Otuz bir yaşlı Pərviz Tağıyev dünən Mingəçevir Şəhidlər xiyabanında dəfn edilib.*

**Allah rəhmət eləsin!**

# Ülviyyə Mikayılova “Space"nin sədrliyinə gətirilib



**“Space” TV-də yeni təyinat olub. ”Şərq”in əldə etdiyi məlumata görə, Ülviyyə Mikayılova adlı xanım kanalın rəhbəri təyin olunub.**

Bundan əvvəl kanalın rəhbəri tanınmış kinorejissor Vaqif Mustafayev idi. O, vəzifəsindən kənarlaşdıqdan sonra Kamil Şahverdiyev müvəqqəti olaraq kanalın rəhbəri vəzifəsini icra edib.

*Qeyd edək ki, Ü.Mikayılova 1959-cu ildə anadan olub. O, ADA Universitetinin baş müəllimi, Təhsil Nazirliyi yanında İctimai Şuranın üzvü, Müasir Təhsil və Tədrisə Yardım İctimai Birliyinin rəhbəridir.*

**Kənan**

# Yoluxanların sayı yenə artdı

## Koronavirusdan 20 nəfər vəfat edib, 2 074 nəfər sağalıb




**Azərbaycan Respublikasında koronavirus (COVID-19) infeksiyasına 1 080 yeni yoluxma faktı qeydə alınıb, 2 074 nəfər müalicə olunaraq sağalıb.**

“Şərq”ə Nazirlər Kabineti yanında Operativ Qərargahdan verilən məlumata görə, COVID-19 üçün götürülən analiz nümunələri müsbət çıxmış 20 nəfər vəfat edib.

İndiyədək ölkədə ümumilikdə 323 841 nəfərin koronavirus infeksiyasına yoluxması faktı müəyyən edilib, onlardan 298 949 nəfər müalicə olunaraq sağalıb, 4 617 nəfər vəfat edib, aktiv xəstə sayı 20 275 nəfərdir.

*Son sutka ərzində yeni yoluxma hallarının müəyyənləşdirilməsi ilə əlaqədar 10 701, ötən müddət ərzində isə ümumilikdə 3 289 864 test aparılıb.*

# Mollaların bəziləri özlərini azərbaycanlı kimi aparmır

## Şərqşünas Sabir Rüstəmxanlının və digər millət vəkillərinin narahatlıqlarını bölüşür

Parlamentin ötən gün keçirilən plenar iclasında "Dini etiqad azadlığı haqqında" qanun layihəsi müzakirəyə çıxarılıb. Layihə çərçivəsində çıxış edən deputatlar dini sahədəki mövcud problemlərdən danışıb, şahidi olduqları neqativ halları gündəmə gətiriblər.

Millət vəkilləri əsasən, ”din xadimi” adına iddialı məhəllə mollalarının cahilliyindən və təhlükəli yanaşmalarından gileylənibləр. Deputat Sabir Rüstəmxanlı bildirib ki, mollaların bir hissəsi azərbaycanlı təsiri bağışlamır. Onun sözlərinə görə, sanki bəzi mollalar fars dilində düşünür və danışırlar: ”Onlara bu haqqı kim verib? Dini kadrların seçilməsinə son dərəcədə ciddi yanaşılmalıdır. Kim orta məktəbi yaxşı oxuya bilmirsə, hətta əlifbadan xəbərsizdirsə, ”Yasin”i köçürür latın qrafikasına və gedib durur qəbiristanlığın ağzında. Yaxşı söz var: ”Din qılıncdır, dövlət qındır”. Dövlət də gərək o qılıncı qında qorusun, qılınc qını kəsməsin. Biz Azərbaycanın milli maraqlarının təmin olunmasına çalışmalıyıq”.

Parlament üzvü təəssüflə qeyd edib ki, məscidlərimizdəki mollaların bir çoxu oranı qonşu ölkələrin təbliğat meydanına çeviriblər: ”Elə bil Azərbaycanın öz dərdi yoxdur, onlar ancaq ərəb və fars mifologiyasının təbliğatı ilə məşğul olur. Ziyalılarımız yüksək səviyyədə öz dinimizə sahib çıxmalıdır”. S.Rüstəmxanlının bir neçə həmkarı da onunla həmfikir olduqlarını deyiblər.



**“Bu cür cəhdlər Azərbaycanın milli təhlükəsizliyinə təhdiddir. Çünki ideoloji baxımdan din özü də müqavimət gücüdür”**

**Milli Məclisdə gündəmə daşınan problemlə bağlı ”Şərq”ə danışan şərqşünas-alim, Qarabağ Seyid Ocaqlarının rəhbəri, ”Space TV”də ”İnam” verilişinin aparıcısı Seyid Camal Əzimbəyli deyib ki, Azərbaycan müstəqilliyə qovuşduqdan sonra ölkənin dini mühitində boşluq yarandı.** Ekspertin sözlərinə görə, həmin boşluqdan məharətlə istifadə edənlər oldu: ”İslamın təməl prinsiplərinə əsla aidiyyəti olmayan bir qrup işbaz din sahəsini özləri üçün qazanc mənbəyinə çevirdilər. Digər tərəfdən Azərbaycanın dini mühitində yad təsirlərin, başqa ölkələrin dini dairələrinin oturuşmuş bir şəbəkəsi də formalaşdı. Bu faktı heç kim dana bilməz. Hər zaman söyləmişik ki, Azərbaycanın dini mühitində dini kimliklə bərabər, milli kimliyin də vəhdətini yaşayan, milli məfkurə və şüur sahiblərinin olması çox vacibdir. Bu, dövlətçiliyimizin bütövlüyünə ən böyük xidmətdir. Cənab Prezidentimiz tərəfindən Dini Qurumlarla İş üzrə Dövlət Komitəsinin nəzdində İlahiyyat İnstitutu yaradılıb. Həmin İnstitutda araşdırmaçı-şərqşünas kimi daim təmasda olduğum və tez-tez ”İnam” proqramına dəvət etdiyim potensial kadrlar fəaliyyət göstərir. Amma nəzərə alaq ki, İlahiyyat İnstitutu yeni yaradılıb. Hardasa, 2-3 il sonra orada yetişən tələbələr dini sahədəki boşluğu müəyyən mənada dolduracaqlar”.

**Şərqşünas vurğulayıb ki, deputat Sabir Rüstəmxanlını və digər millət vəkillərinin narahatlıqlarını bölüşür:** ”Məsələ ondadır ki, rayon və kəndlərdə yas mərasimlərini aparan şəxslərin Ruhanilər İdarəsinə dəxli yoxdur. Hansısa kənddən ”münasib” bir adam tapırlar. Baxırsan ki, əvvəllər sürücü işləyib, yaxud pampıq sahəsində ”briqadir” olub, ömrünün ahıl çağında isə ”Quran”ı azərbaycanca öyrənərək ”fəaliyyətə” başlayır. Yerlərdəki yas mərasimlərində din adına iddia edən bu cür ”xadimlər” var. Belə şəxslər dini qaydaların insanlara doğru-dürüst çatdırılmasına böyük əngəl törədir. Həm yad təsirlərdən mühafizə olunmaq üçün çalışmalıyıq, həm də bir sıra xarici ölkələrdə dini təhsil almış bəzi şəxslərimizin kənar dini şüurların Azərbaycan mühitinə sırımasına imkan verməməliyik. Bu cür cəhdlər Azərbaycanın milli təhlükəsizliyinə təhdiddir. Çünki ideoloji baxımdan din özü də müqavimət gücüdür. Qarşısını almağın yolu da elmi maarifləndirmədən keçir. Hesab edirəm ki, dini maarifləndirməni 30-40 faiz həyata keçirə bilirik. 44 günlük Vətən müharibəsində bunun şahidi olduq. İlahiyyat institutunun kadrları çoxaldıqca, milli kimlikləri, dövlətə bağlılıqları gücləndikcə, ”mollalar” tədricən Azərbaycanın dini mühitindən çəkiləcək. Amma bəzi məqamlara görə narahat olmağa dəyər. Yaxşı olar ki, ilk növbədə aydınlarımız, ziyalılarımız öz məclislərində din adına iddia edən işbazların fəaliyyətinə imkan verməsinlər”.

**İsmayıl Qocayev**

# Cəmiyyətin “qara üzləri...”

## 190 manata qarpız alıb yerə çırpanlar ki general oğlu deyildi




Paytaxt marketlərindən birində qida məhsullarını qəsdən yararsız hala salan şəxslərin kimliyi müəyyənləşib və onlar polis şöbəsinə çağırılıb. Şəxslərlə söhbət zamanı onlar əməllərindən peşman olduqlarını bildiriblər və üzr istəyiblər.

Hadisəyə bir qədər geniş nəzər salanda üzərində düşünüləsi məqamlar ortaya çıxır. Daxili İşlər Nazirliyinin məlumatında bildirilir ki, Nəsimi Rayon Polis İdarəsinin əməkdaşları tərəfindən aparılan araşdırmalarla həmin şəxslərin Bakı şəhər sakinləri Rüstəm Orucov və Xəyalə Vəliyeva olduqları müəyyənləşib. Onlar polis orqanına gətirilib və həmin şəxslərlə profilaktik söhbətlər aparılıb, o cümlədən mağazaya dəymiş maddi ziyan ödətdirilib. R.Orucov və X.Vəliyeva törətdikləri əməldən peşman olduqlarını bildiriblər.

Məsələnin digər tərəfi isə saxlanılan Rüstəm Orucovun Səfərbərlik və Hərbi Xidmətə Çağırış üzrə Dövlət Xidməti rəisinin sabiq müavini, general Novruzəli Orucovun oğlu olmasıdır. Rüstəm Orucov bir neçə il əvvəl avtobus sürücüsünə qarşı xuliqanlıq etmişdi və Binəqədi rayon Məhkəməsinin hökmü ilə 4 il 6 ay müddətinə azadlıqdan məhrum edilmişdi. Məhz həmin vaxt general-mayor Novruzəli Orucov Prezident İlham Əliyevin sərəncamı ilə Səfərbərlik və Hərbi Xidmətə Çağırış üzrə Dövlət Xidməti rəisinin həqiqi hərbi xidmətə çağırış üzrə müavini vəzifəsindən azad edildi.

İndi isə bu şəxs növbəti qeyri-etik hərəkəti ilə gündəmə gəldi. Markətə daxil olub qida məhsullarını əzməkdən bir insan zövq alırsa, buna nə ad vermək olar? Yadınızdadırsa, ötən ilin yayında dövlət tərəfindən əhalinin işsiz qisminə pandemiyada dəymiş ziyanı qarşılamaq məqsədilə 190 manat birdəfəlik yardım ödənilirdi. O zaman 2 gəncin 190 manata aldıqları qarpızı nümayişkaranə şəkildə yerə çırpıb partlatmalarını əks etdirən video sosial şəbəkələrdə yayıldı. Həmin gənclər də müəyyənləşərək polisə dəvət edildi və onlar da etdikləri hərəkətə görə üzr istədilər, peşman olduqlarını bildirdilər. Bəzi insanları bu cür əxlaqdan xaric davranışlar sərgiləməyə sövq edən nədir? Normal düşüncəyə sahib birisinin belə hərəkətlər edəcəyi mümkün görünmür.

**Psixoloq Fərqanə Mehmanqızı ”Şərq”ə açıqlamasında ilk növbədə problemə yanaşmada düzgün istiqamətin müəyyənləşdirilməli olduğunu dedi:**

*“Marketə daxil olub orada qida məhsullarını əzmək, yararsız hala salmaqda məqsəd nə ola bilər? Bu, düşmən səngəri deyil ki, düşmənin canlı qüvvəsinə zərbə vurasan, texnikasını sıradan çıxarasan və sənə ”afərin” desinlər, qəhrəman olasan”*

- Cəmiyyətimizin səhvi bundadır ki, hansısa əxlaqsız davranış sərgiləyən, yaxud cinayət törədən şəxsə onun peşəsi və ya kimin oğlu, kimin qohumu olması prizmasından yanaşırıq. Məlumat ”marketdə qida məhsullarını əzən generalın oğludur”, şəklində yayılırsa, bu, cəmiyyəti problemin yaranma səbəbini düşünməyə deyil, hadisəni törədənin kimliyinə kökləyir. O hadisə niyə, hansı səbəbdən yarandı, qalır kənarda, üzə çıxan hadisəni törədənin kimliyi olur. Belə bir yanlış  təəssürat yaranır ki, sanki bu davranış harınlıqdan, varlı ailənin övladı olmaqdan doğub. Halbuki eyni davranış, kasıb, aztəminatlı, cəmiyyətdə tanınmayan, vəzifə sahibi olmayan biri, yaxud onun övladı tərəfindən də törədilə bilər. Ötən yay 190 manata qarpız alıb yerə çırpanlar ki general oğlu deyildilər. Cinayəti törədənin hansı peşəyə sahib olması, cinayətkarın kimliyi önəmli olmamalıdır, cənayəti, əxlaqsız hərəkəti törədən səbəb müəyyənləşməlidir. Ali savadlı həkim də cinayət törədir, savadlı olmayan fəhlə də. Bilirsiz, nə qədər ki, biz cəmiyyət olaraq problemə düzgün istiqamətdən yanaşmayacağıq, ictimaiyyətə meydan oxuyan, əxlaqa zidd davranışların çox şahidi olacağıq.



“Cəmiyyətə meydan oxumağa çalışanlar psixoloji problemi olan insanlardır”

**F.Mehmanqızı qeyd etdi ki, hər bir problemdə önəmli olan səbəbdir:**

- Cəmiyyətə meydan oxumağa çalışanlar psixoloji problemi olan insanlardır. Bu insanlar özlərini güclü, ”qadir” göstəməyə çalışsalar da, əslində özgüvəni olmayan, özünü həyatda təsdiq edə bilməmiş insanlardır. Bu tip insanların hərəkətlərinə diqqət edin; onlar diqqəti cəlb etməyə çalışırlar. Marketə daxil olub orada qida məhsullarını əzmək, yararsız hala salmaqda məqsəd nə ola bilər? Bu, düşmən səngəri deyil ki, düşmənin canlı qüvvəsinə zərbə vurasan, texnikasını sıradan çıxarasan və sənə ”afərin” desinlər, qəhrəman olasan. Yəni bu, heç kimə lazım olmayan, gərəksiz bir hərəkətdir. Sadəcə, izlənmək istəyirlər. Nə olur, olsun, yaxşı və ya pis iş, təki izləyənləri olsun. Deməli, bu insanların psixoloji problemləri var. Bu tip insanlar həyatda öz güclərinə, öz bilik və bacarıqları sayəsində nəyəsə nail olmadıqlarından sadəcə, cəmiyyətdə aktivliklərini qoruyub saxlamağa çalışırlar. Və onu da bu cür diqqət çəkən, izləyici kütləsi gətirən paylaşımlarla edirlər. İzləyənlərin artdığını gördükcə, daha da ürəklənirlər. İnsan böyüdükcə, yaşlandıqca ya kamilləşir, ya da şeytanlaşır. Kamilləşənlərin ardınca onlara uyğun olanlar gedir, şaytanlaşanların ardınca da onlara uyğun olanlar. Bunlar cəmiyyətdəki viruslardır və onların qarşısı alınmalıdır.

Psixoloq bu məsələdə ailənin, valideynlərin məsuliyyətinin önəmli olduğunu da dedi:

- Ata-ana övladında hansı xüsusiyyətlərin formalaşdığına daim diqqət etməlidir. Bunun üçün müxtəlif üsullar var. Məsələn, ata, ana müəyyən məbləğdə pulu övladına verib ”apar bunu filankəsə ver”, deyib oğlunun hərəkətlərini, davranışlarını izləyə bilər. Pulu aparıb verdimi, yalan söyləmədi ki?! Eynilə başqa üsullarla da övladı sınamaq olar. Bu, övladın hansı istiqamətdə formalaşdığını az-çox göstərəcək. Övlad xeyirxahdırmı, yardıma ehtiyacı olana əl uzadırmı, xəstəyə qarşı şəfqətlidirmi? İnsan formalaşma yaşına çatanadək valideynlər buna diqqət etsələr, övladlarının gələcəyinin necə olacağını təxmin edərlər. Səbəb bəzən ailə ilə, bəzən yaxın çevrədəkilərlə, bəzən məktəb, iş yeri ilə bağlı ola bilər. Bütün hallarda hadisənin yaranma səbəbi aydınlaşmalıdır. Belədə oxşar hadisələrin təkrarlanmamasına daha çox ümid etmək olar.

**Məlahət Rzayeva**




## Həkimlər xilas edə bilmədi

### Bakıda başına daş plitəsi düşən yeniyetmə ölüb

**Bakıda başına daş plitəsi düşən 14 yaşlı Əli Şabanov vəfat edib.**

APA-nın xəbərinə görə, hadisə nəticəsində ağır xəsarət alaraq komaya düşən Səbail rayonu, Badamdar qəsəbə sakini Şabanov Əli Mahir oğlu bu gün müalicə olunduğu xəstəxanada dünyasını dəyişib. Qeyd edək ki, bir neçə gün əvvəl Bakının Səbail rayonu, Badamdar qəsəbəsi, Rafiq İsgəndərov küçəsində beşmərtəbəli yaşayış binasından daş piltəsi qoparaq həmin binada yaşayan 2007-ci il təvəllüdlü Şabanov Əli Mahir oğlunun üzərinə düşüb. Ağır kəllə-beyin travması alan Ə. Şabanov komatoz vəziyyətdə xəstəxanaya yerləşdirilmişdi.

# Bakıda güclü külək TIR-ı aşırdı

## 15 ağac qırılıb, işıq dirəyinə ziyan dəyib





Bakıda yük avtomobili küləyin təsirindən aşıb. Hadisə paytaxtın Qaradağ rayonu, Sahil qəsəbəsində baş verib. Güclü külək qəsəbə ərazisində "Saloni" Mebel mağazasının qarşısında dayanan ağırtonlu yük avtomobili güclü küləyə tab gətirməyərək aşıb. Hadisə nəticəsində avtomobilə ciddi ziyan dəyib.

Güclü külək həmçinin paytaxtın müxtəlif ərazilərində irigövdəli ağacların aşmasına səbəb olub.

Bu barədə Bakı şəhər İcra Hakimiyyətinin Yaşıllaşdırma Təsərrüfatı Birliyinin Bitkilərin mühafizəsi şöbəsindən bildiriblər. Qeyd olunub ki, gün ərzində 15 ağacın aşması qeydə alınıb:

”Ağaclar daha çox Nərimanov, Nəsimi və Binəqədi rayonlarında aşıb. Hadisə yerinə icra hakimiyyətinin əməkdaşları cəlb olunublar. Ağac qırıntılarının hadisə yerindən götürülməsi istiqamətində işlər davam etdirilir”.

Qeyd edək ki, Nərimanov rayonu ərazisində ağacın aşması səbəbindən işıq dirəyinə də ziyan dəyib.

Güclü külək Bakıda digər qəzaya da səbəb olub.

Olay Salyan yolu 22 ünvanında qeydə alınıb.

Hərəkətdə olan motosikleti güclü külək avtomobilə çırpıb.

Motosiklet aşıb, motosikletçi xəsarət alıb. O, xəstəxanaya yerləşdirilib.

# Turan birliyi yuxularına haram qatıb

## *Mərkəzi Asiyada baş verənlərdə Moskva birbaşa maraqlıdır*



Qırğızıstanla Tacikistan arasındakı qarşıdurma Mərkəzi Asiyada vəziyyəti gərginləşdirdi. Bir neçə gün davam edən insidentdən sonra tərəflər arasında nisbi sakitlik yaransa da, proseslərin bundan sonra necə inkişaf edəcəyi məlum deyil. Ən azından ona görə ki, regionun iki dövləti arasında münaqişələr yeni deyil. Tərəflər keçən əsrin 60-cı illərindən etibarən bir-biriləri ilə, belə demək mümkünsə, höcətləşirlər. Səbəb isə su hövzəsinə nəzarətdir. Daha doğrusu, bu, aysberqin görünən tərəfidir.

**Siyasi analitik Samir Hümbətov tərəflər arasındakı gərginlik barədə "Şərq"ə danışıb:** "Hadisələri müntəzəm olaraq izləyirəm. Qismən olsa da, hələ tam sakitlik yoxdur. Lakin münaqişənin davamlı olacağını və daha ağır fazaya keçəcəyini düşünmürəm. Çünki proseslərə digər dövlətlərin, o cümlədən Çinin, Türkiyənin və Rusiyanın müdaxiləsi var. Bundan sonra da olacaq. Həmin ölkələr bölgədə münaqişənin alovlanmasını istəmir. Düzdür, müharibənin başlanmasında bəzi maraqlı qüvvələr də var. Lakin bütün hallarda genişmiqyaslı savaşın start götürəcəyini güman etmirəm. Həm də ona görə ki, Qırğızıstan rəhbərliyi hərbi əməliyyatların aktivləşməsini istəmir. O, bununla bağlı bəyanat da verib. Bir müddət sonra münasibətlər normallaşacaq. Hər halda tatix boyu belə qarşıdurmalar olub".

**S.Hümbətov, həmçinin proseslərdə Rusiyanın "əli olduğunu" dedi:** "Kreml baş verənlərdə birbaşa maraqlıdır. Şimal qonşumuz "arxa bağçası" hesab etdiyi regionda problem yaşanmasını istəmir. Çünki həm Qırğızıstan, həm də Tacikistan Rusiyanın dominant mövqe tutduğu KTMT-nin üzvüdür. Bununla belə, Moskvanın "pərdəarxası" mesajı da var: demək istəyir ki, mən regionda olmasam, sabitlik yaranmaz, vəziyyət daha da ağırlaşar. Rusiya, həmçinin tərəflər arasındakı sərhədi öz nəzarətində saxlamaq niyyətindədir. İkinci bir tərəfdən isə şimal qonşumuzda Turan birliyi ilə bağlı narahatlıq var. Bu barədə həm Rusiyanın Müdafiə Nazirliyi, həm də Xarici İşlər Nazirliyi bəyanat verib. Məhz Turan birliyinin yaranmasına mane olmaq üçün belə məsələlərlə "baş qatır", prosesi ləngidirlər. Lakin heç bir qüvvə Turan birliyinin yaranmasının qarşısını ala bilməz. Bir müddətdən sonra hazırkı reallıq aradan qalxacaq, Qırğızıstanla Tacikistan arasında münasibətlər normallaşacaq. Lakin zaman-zaman lokal toqquşmaların olması da istisna deyil. İki türk dövləti arasında sərhəd elədir ki, hər an etnik münaqişə başlana bilər. Daimi sabitlik yaratmaq üçün isə tərəflər böyük əmək sərf etməlidirlər".

**Kənan Novruzov**

## Baş nazir təmizləmə aparır

### Ermənistan ordusu daha çox "Qarabağ klanı"nın təsiri altındadır



**Ermənistan Silahlı Qüvvələri Baş Qərargahının rəis müavini general-leytenant Karen Abramyan vəzifəsindən azad edilib.**

Generalın vəzifədən kənarlaşdırılması təklifini Nikol Paşinyan verib. Prezident artıq müvafiq sərəncamı imzalayıb. Baş verənlər onu göstərir ki, Ermənistanın hərbi elitasında da vəziyyət ürəkaçan deyil. Onsuz da uçurumun astanasında olan düşmən ölkədə vəziyyət getdikcə ağırlaşır.

**Politoloq Qabil Hüseynli rəsmi İrəvanda baş verənlər barədə "Şərq"ə danışıb:** "Yadınızdadırsa, Ermənistan Silahlı Qüvvələrinin Baş qərargah rəisi Orik Qosporyan Nikol Paşinyanın hakimiyyətdən getməsi ilə bağlı bəyanat vermişdi. 40-dan çox yüksək rütbəli zabit həmin sənədi imzalamışdı.

Onlardan ancaq biri, Qosporyan cəzalanmışdı. Çox güman, Karen Abramyan da həmin 40 nəfərdən biri imiş. İkinci bir tərəfdən isə ordu daha çox "Qarabağ klanı"nın təsiri altında fəaliyyət göstərir. Silahlı Qüvvələrdə itaətsizlik, ölkə rəhbərliyinə tabe olmamaq meyilləri var.

Baş nazir orduda "təmizləmə" aparır, mərkəzdənqaçma meyillərinin qarşısını almağa çalışır. Başqa sözlə desək, o, ordunu öz tabeliyində saxlamaq niyyətindədir".

**Kənan**

# Moskva bütün dünyanın qarşısında ifşa olunub

## *Kreml heç olmasa bundan sonra proseslərə neytral mövqedən yanaşmalıdır*



"İsgəndər-M" raketinin qalıqları Şuşadakı Qazançı kilsəsinin 200 metrliyində tapılıb. Bu barədə Azərbaycan Xarici İşlər Nazirliyinin mətbuat xidməti idarəsinin Ermənistan Xarici İşlər Nazirliyinin Azərbaycan tərəfindən Şuşada aparılan bərpa işləri ilə bağlı bəyanatına dair şərhində bildirilir.

Qeyd edilir ki, bu, ölümcül silahla Ermənistanın bütün şəhəri, o cümlədən "dəyər verdiyi" kilsəni belə məhv etməyə hazır olduğunu göstərir.

Rusiya Xarici işlər naziri Sergey Lavrovun Bakıya səfəri ərəfəsində belə bir məlumatın yayılması beyinlərdə sual yaradır. Aydın məsələdir ki, nazirlərin görüşündə müzakirə olunacaq əsas məsələlərdən biri də məhz "İsgəndər-M"-lə bağlıdır. İndi sözügedən məlumatın yayılması ilə Kreml özünə "hava yastığı" yaradır?!

**AĞ Partiya sədri Tural Abbaslı "Şərq"ə açıqlamasında bildirib ki, bütün cəhdlər mənasızdır:** "Raket Şuşa azad olunandan sonra atılıb. Elə isə ermənilər niyə öz tikdikləri kilsəni vursunlar?! Və ya Rusiya nə üçün Azərbaycanın nəzarətindəki ərazini hədəf alsın?! Bəlkə də bu, Şuşa azad olunmazdan əvvəl baş versəydi, ağla batardı. İndiki halda isə yox. Moskva heç bir halda "yaxasını kənara çəkə bilməyəcək". Ya raketi özü atdığını etiraf etməli, ya da ordusuna nəzarət edə bilmədiyini, "İsgəndər"lərin oğurlandığını deməlidir. Bütün hallarda Kreml çıxılmaz vəziyyətdədir. Və bu, sülhməramlıların fəaliyyəti ilə bağlı da şübhə yaradır. "İsgəndər"dən bizə qarşı istifadə edənlər necə sülhməramlı ola bilərlər?! Dediyim kimi, Rusiya bundan sonra hansı bəyanatı verməsindən asılı olmayaraq, xeyri yoxdur. Dirəniş mənasızdır. Bəhanəyə yer qalmayıb! Moskva bütün dünyanın qarşısında ifşa olunub. Odur ki, məsələlərə nə qədər tez aydınlıq gətirsə, o qədər yaxşıdır".

*T.Abbaslının sözlərinə görə, şimal qonşumuz heç olmasa, bundan sonra proseslərə neytral mövqedən yanaşmalıdır:* "Rusiya yanlışını düzəltməkdən ötrü addımlar atmalıdır. Sadəcə ədalətli, obyektiv, tərəfsiz olsun. Ermənilərdən azad etdiyimiz ərazilərimizdə öz qoşunlarını yerləşdirməsin. Problemin həllinin əksi istiqamətində addımlar atmasın, əksinə, çözümə çalışsın. Tarixə, beynəlxalq hüququn tələblərinə uyğun davransın. Qarabağın Azərbaycan ərazisi olduğunu etiraf etsin, orada suverenliyimizin bərpa edilməsinə mane olmasın, sülhməramlılar hər iki icmaya - həm azərbaycanlılarla, həm də ermənilərlə eyni cür davransınlar. Və nəzərdə tutulmuş müddətdən sonra rus qoşunları Qarabağdan çıxarılsın. Yalnız bundan sonra Moskva öz səhvlərini təmizləmiş ola bilər".

**Kənan**



## Lavrov İrəvana Putinin mesajlarını aparıb

### Məqsəd baş naziri tamamilə Moskvadan asılı vəziyyətə salmaqdır

**Rusiyanın Xarici işlər naziri Sergey Lavrov dünən İrəvana səfər edib. O, ermənistanlı həmkarı Ara Ayvazyanla görüşüb. İki günlük işgüzar səfərdə nələrin müzakirə ediləcəyi isə açıqlanmayıb.**

AĞ Partiya sədrinin müavini, politoloq Əhəd Məmmədlinin fikrincə, S.Lavrov səfər zamanı həmkarına Rusiya dövlət başçısı Vladimir Putinin mesajlarını çatdıracaq: "Məlum olduğu kimi, Ermənistanda seçkiqabağı vəziyyətdir. Rusiya Ermənistandakı mövqelərini möhkəmləndirmək istəyir. Odur ki, rəsmi İrəvanın "Qarabağ klanı", Rusiyanın Ermənistandakı tərəfdarları ilə, həmçinin Qərblə əlaqələri barədə Ayvazyana müəyyən mesajlar veriləcək. Əlbəttə, Kreml rəhbəri Koçaryanın hakimiyyətə gəlməsində maraqlıdır.

Lakin həm də reallıqla barışır və bilir ki, Paşinyanın şansları daha çoxdur. Bu səbəbdən də əsas məqsəd baş naziri tamamilə Moskvadan asılı vəziyyətə salmaqdır".

**Kənan**

## Ərdoğan Baydenlə danışıb

### "Bir kəlmə üçün bu qədəri çox deyilmi?"





**"ABŞ Prezidenti Co Bayden "erməni soyqırımı" ifadəsini işlətməzdən əvvəl Türkiyə dövlət başçısı Rəcəb Tayyib Ərdoğana zəng edib.**

Onlar iki ölkə arasında ikitərəfli münasibətləri müzakirə edərək iyun ayında NATO-nun tədbiri çərçivəsində görüşmək haqqında razılaşıblar".

**Bu sözləri BDU-nun professoru, politoloq Əlimusa İbrahimov deyib. Politoloq daha sonra bunları bildirib:** "Məlumatlı mənbələr Baydenin ermənilərin uzun müddət ABŞ prezidentlərinin dilindən eşitmək istədikləri kəlməni ifadə etməyi planlaşdırdığını da Türkiyə dövlət başçısına bildirdiyini vurğulayır. Amma nəzərdən qaçırılır ki, əslində Bayden Türkiyə prezidentinə qəbul edərsə, ABŞ-ın Yaxın Şərqdə siyasətinə yardım etmək - yəni "Kürd dövləti"nin yaradılmasına razılıq vermək, İsraillə əlaqələri normallaşdırmaq, İrana qarşı mübarizədə ABŞ-ın yanında olmaq və Rusiya ilə silah sahəsində əməkdaşlıqdan əl çəkmək müqabilində bu kəlməni işlətməyəcəyini bildirib. Türkiyə prezidenti isə Baydenə "Bir kəlmə üçün bu qədəri çox deyilmi?"- deyə, cavab verib".

**Kənan**

**Ermənistan-Azərbaycan, ərazilərin işğaldan azad olunması haqqında həqiqətlərin dünya ictimaiyyətinə çatdırılması, Azərbaycanın ədalətli mövqeyinin müdafiə edilməsi**

# Azərbaycana təzyiq mümkün deyil

## *Heç kim rəsmi Bakının qərarlarına təsir göstərə bilməz*



Prezident İlham Əliyevin nümayiş etdirdiyi humanizm sayəsində 2020-ci il 10 noyabr üçtərəfli bəyanatından sonra tərksilah edilən erməni hərbçilərdən üçü azad edilib. Rusiya sülhməramlı qüvvələrinin komandanı Rüstəm Muradovun müşayiəti altında Bakı-İrəvan reysilə Ermənistana çatdırılıb. Azad edilən ermənilər bunlardır: Rovert Vardanyan, Samvel Şuxyan və Seyran Təhməzyan.

İstintaq prosesi çərçivəsində Ermənistan vətəndaşları olan bu şəxslərin Ermənistan silahlı qüvvələrinin hərbi qulluqçuları olması təsbit edilsə də, onların əməllərində cinayət tərkibi, o cümlədən mülki və ya hərbi Azərbaycan vətəndaşlarının öldürülməsi və ya yaralanması ilə nəticələnən əməliyyatlarda iştirakı müəyyən edilməyib. Hərbçilərin Azərbaycana qarşı terror aktlarında iştirak etmədikləri də təsdiqlənib. Məsələ ondadır ki, Azərbaycanın nümayiş etdirdiyi yüksək humanizm siyasətinə Ermənistan tərəfindən adekvat cavab verilmir. Rəsmi Bakının bütün xoşməramlı addımlarına rəğmən, erməni tərəfi müxtəlif təxribatlarla üçtərəfli sazişin müddəalarının reallaşmasına maneçilik törədir. İlk növbədə Ermənistan üçün həyati əhəmiyyət kəsb edən regional əməkdaşlıq prosesinin başlanmasına əngəllər yaradır, təxribatlar hazırlayır. Ermənistan minalanmış ərazilərin xəritələrini hələ də gizlədir. Minalanmış ərazilər mülki və hərbi şəxslərin ölümü və yaralanması ilə nəticələnir. Birinci Qarabağ müharibəsi dövründən itkin düşmüş hesab olunan 4000-dən artıq Azərbaycan vətəndaşı barəsində heç bir məlumat verilmir. Şübhə yox ki, əksəriyyəti öldürülüb və kütləvi məzarlıqlarda basdırılıb. Belə məzarlıqlardan biri ötən gün Kəlbəcərin Başlıbel kəndində müəyyən edilib. Birinci Qarabağ müharibəsində Ermənistan tərəfdə əsirlikdə olduğu və sağlığı Beynəlxalq Qızıl Xaç Komitəsi tərəfindən də təsbit edilmiş və müxtəlif yazışmalar aparılmış Azərbaycan vətəndaşları barəsində Ermənistan hələ də susqunluq nümayiş etdirir. Buna baxmayaraq, Ermənistan aylardır uydurma "əsir" mövzusundan Azərbaycana qarşı təzyiq aləti kimi istifadə edir və açıq demək lazımdır ki, beynəlxalq aləmdən kifayət qədər dəstək qazanıb. Son günlər ermənilərin beynəlxalq təşkilatlardakı, o cümlədən ABŞ Konqresi və Avropa Parlamentindəki dostları "əsirlər" mövzusunda Azərbaycana təzyiqi artırıblar. Halbuki, 10 noyabrdan sonra Azərbaycan sərhədini qanunsuz keçən Ermənistan vətəndaşları əsir sayılmır. Əfsuslar olsun ki, Qərb bu həqiqəti qəbul etmək istəmir. Deməli, bu vəziyyətdən çıxış yolu tapmalı, siyasətdə manevr imkanlarımızı artırmalıyıq. Əlimizdə olan ermənilərlə bağlı strategiyamız müəyyənləşməlidir. Eyni zamanda, əməllərində cinayət tərkibi təsdiqlənməyən ermənilər hissə-hissə Ermənistana təhvil verilə bilər. Bu qərarı aprelin 8-də planlaşdırılan, lakin son anda baş tutmayan razılaşmanın indi yerinə yetirildiyi kimi də qiymətləndirə bilərik. Həmin tarixdə Muradovun əliboş qayıtmasına İrəvanın Bakının şərtlərini yerinə yetirməkdən son anda imtina etməsinin səbəb olduğu ehtimalı var idi. Mümkündür ki, indi Bakı istəyini alıb. Yəni üç erməninin qarşılığında minalanmış ərazilərin xəritəsi, ən azından bir hissəsi verilir.

## "Bu qərarı Lavrovun bölgəyə səfəri ilə bağlamaq da düzgün deyil"

Yaxud, erməni qoşunlarının çıxarılması prosesinə qarşılıq bu addım atılır. Ən mühüm məqam isə üç diversantın Rusiya XİN rəhbəri Sergey Lavrovun bölgəyə səfərə başlamasından bir gün öncə azad edilməsidir. Məlumatlara görə, Lavrov məhz erməni qoşunların Qarabağdan çıxarılmasından, Ermənistanın Qarabağda hərbi varlığının başa çatmasından sonrakı dövrü müzakirə etmək üçün regiona gəlir. Söhbət Xankəndinin taleyindən gedir. Rəsmi Bakı yalnız 4-cü bəndin icrasına başlanandan sonra nələrisə müzakirə edə bilər və gözlənilənlər ki, Lavrovun İrəvan və Bakı səfəri ilə bu prosesə start verilsin, yaxud konkret vaxt müəyyənləşdirilsin. Üç erməninin azad edilməsi də Bakının xoş niyyətini nümayiş etdirməsi, İrəvana "razılaşmalara əməl ediləcəksə, bu addımların davamı ola bilər" mesajının verilməsi, o cümlədən, Paşinyan hakimiyyətinə razılaşmalara əməl edə bilməsi üçün erməni ictimaiyyəti qarşısında əsas yaradılmasıdır. Azərbaycanın cari hədəfi Ermənistanın Qarabağdakı hərbi varlığının aradan qaldırılmasıdır. Yalnız bundan sonra Xankəndinin idarəçiliyini müzakirə etmək mümkün olacaq. Lavrovun səfəri və nəticələri proseslərin inkişafını müəyyənləşdirəcək amildir.

*Rusiya Federasiyasının Təhlükəsizlik Şurasının ekspert-analitiki Anatoli Nikoforov rusdilli caliber analitik informasiya resursuna verdiyi müsahibəsində bir sıra maraqdoğuran məsələlərə toxunub.* Onun sözlərinə görə, Azərbaycanla münasibətlər qurulub, ancaq Ermənistanla nə baş verdiyini anlamaq çətindir. Nikoforov əlavə edib ki, əlbəttə, Moskva qarşılıqlı, sərfedici iqtisadi layihələri inkişaf etdirmək üçün öz ətrafında partnoyrlarının olmasını istəyir və Sergey Lavrovun həm Ermənistana, həm də Azərbaycana səfər məqsədi rus siyasətinin sabitlik göstəricisidir: "Moskva söz yox ki, Bakı və İrəvan ilə yaxşı münasibətlərdə olmaqda maraqlıdır. Yeri gəlmişkən, Azərbaycanla münasibətlər qurulub, ancaq Ermənistanla nə baş verdiyini anlamaq çətindir. Azərbaycanla müharibə göstərdi ki, Ermənistan qaçdı, ayağı ilişərək yıxıldı və "burnunu əzdi".

Nikoforov bu məsələdə Ermənistanın 44 günlük müharibədə ağır məğlubiyyətə düşdüyünü və buna görə heç kimin deyil, məhz özünün günahkar olduğunu ifadə edib. Yəni qeyd etməyə çalışıb ki, Ermənistan uğradığı ağır və çıxılmaz vəziyyətinə görə məhz öz rəhbərliyini, siyasi dairələrini günahlandırmalı, səhvlərindən nəticə çıxarmalıdır: "Ermənistan kiçik, zəif ölkə kimi Rusiyadan başqa heç yerin marağında deyil. Beynəlxalq ictimaiyyətə belə bir siqnal verilir ki, baxın, Ermənistan hətta Rusiyanın xarici işlər nazirini "persona non-qrata" elan etməkdən belə çəkinmir. Lakin bütün bunlar Krılovun məşhur "Fil və Moska" təmsilində deyildiyi kimi, gülünc və axmaqlıqdır".

**Politoloq Tofiq Abbasov "Şərq"ə bildirib ki, Azərbaycanın əlində olan ermənilərin cinayət əməlləri müxtəlifdir. Ekspertin sözlərinə görə, müharibədə, yaxud ondan sonra ələ keçirilən erməni hərbçilərinin hamısı birbaşa diversiya və ya terrorçuluq fəaliyyətində iştirak etməyib.** Analitikin sözlərinə görə, burada söhbət Azərbaycan vətəndaşlarına və əsgərlərimizə xətər yetirməyən erməni hərbçilərin Ermənistana təhvil verilməsindən gedir: "Saxlanılan bütün erməni hərbçilərlə bağlı uzun müddətdir ciddi araşdırmalar aparılır. Bu işə təhlükəsizlik orqanları da cəlb olunublar. Əgər lazım bilinirsə və məqamı yetişirsə, hansısa erməni hərbçinin Ermənistana verilməsi, mübadilə prosesi baş tutur. Heç kim bunun təsadüfən ortaya çıxdığını, yaxud hansısa təzyiq vasitəsi kimi məcburiyyətindən edildiyini iddia etməməlidir. Məncə, bu qərarı Lavrovun bölgəyə səfəri ilə bağlamaq da düzgün deyil. Rəsmi Bakı bütün addımlarını müstəqil şəkildə öz şəxsi iradəsi əsasında atır və heç kim bizim qərarlarımıza təsir göstərə bilməz. Bu məqam dövlət rəhbərliyi tərəfindən də dəfələrlə bəyan edilib. Sadəcə anlamaq lazımdır ki, Ermənistanın siyasəti başıpozuq siyasətdir. Orada proseslər vahid mərkəzdən idarə olunmur. Ermənilər təfriqələr hesabına məqsədlərinə nail olmağa çalışırlar. Amma rəsmi Bakının siyasəti tam fərqlidir və özünü doğruldur. Biz düşünülmüş siyasət icra edirik. Dövlətimizin konturları, prioritetləri bəllidir. Ermənistana dəfələrlə xəbərdarlıq edilib ki, düşmən törətdiyi hər təxribatın cavabını mütləq alacaq. İndiki halda üç erməninin Ermənistana təhvil verilməsi çox humanist addımdır. Deməli, həmin şəxslərlə bağlı araşdırmalar sonlanıb və vahid qərar qəbul olunub. Lakin digər erməni diversantları ilə bağlı başqa qərar olacaq. Hələlik bu barədə danışmaq istəmirəm, çünki hər şeyin vaxtı var".

**Cənubi Qafqaz Sülh və Münaqişə İnstitutunun rəhbəri Məhəmməd Əsədullazadə vurğulayıb ki, Azərbaycan üç erməni diversantını azad etməsi ötən gün Ermənistan silahlı qüvvələrinə məxsus xüsusi texnika və artilleriya vasitələrinin Xankəndidən çıxarılması na cavabdır:** "Qarabağda Ermənistan silahlı qüvvələrinə məxsus texnikalar qalmaqdadır. Onların Azərbaycan ərazisində olması Ermənistanın birbaşa 10 noyabr razılaşmasını pozmasıdır. Ermənistan tərəfi hərbi texnikanı çıxarır. Qarabağdakı Rusiya sülhməramlı qüvvələrinin məsuliyyət zonasında silahlı erməni birləşmələrinə gəldikdə isə ilin axırına kimi bu silahlıların da ləğv edilməsinə Azərbaycan çalışacaq. Azərbaycan konkret şərtlərlə hərəkət edir və diversantların qaytarılması erməni tərəfi şərtlərə əməl etməklə həyata keçirilib. Digərlərinin geri verilməsi də zamanla həll ediləcək. İlk növbədə bu, Nikol Paşinyanın hakimiyyətdə qalmasına zəmin yaratmalıdır. Çünki Paşinyan hakimiyyətdə qalacaqsa, Qarabağla bağlı proseslərdən geri çəkiləcək. Qeyd edim ki, Azərbaycan hazırda iki məsələnin üzərində dayanıb, Sərsəng su anbarına və Xocalıya nəzarəti bərpa etmək. İki strateji nöqtə nəzarətimizə keçdikdən sonra erməni separatçıları ərazini tərk edəcək".

**Siyasi şərhçi Rusif Məmmədsoy isə düşünür ki, Ermənistan tərəfi minalanmış ərazilərin xəritəsini verəcəyini vəd edib:** "Əks halda üç erməninin Ermənistana qaytarılmasının başqa açıqlaması yoxdur. Azərbaycan tərəfinin həmin diversantları qeyd-şərtsiz qaytaracağını zənn etmirəm. Nikol Paşinyan üçün bu məsələ çox vacibdir. Qarabağ azad edilib və Nikol anlayır ki, xəritənin verilib-verilməməsi heç nəyi dəyişmir. Lakin erməni hərbçilərin qaytarılması seçki öncəsi Paşinyan üçün çox əlverişli şərait yaradar. Təbii ki, hansı razılaşma əldə olunub, dəqiq deyə bilmərik. Ancaq istənilən halda hər hansı razılaşma olmadan heç bir erməninin qaytara bilmərik".

**İsmayıl Qocayev**

Azərbaycan Respublikasının Medianın İnkişafı Agentliyi

**Azərbaycan Respublikasının Medianın İnkişafı Agentliyinin maliyyə dəstəyi ilə çap olunub**

# Onlar Vətən üçün canından keçənlərdir



"Qarabağ qazilərinə əlillik dərəcələrinin verilməsi ilə bağlı çox diqqətli olmaq lazımdır"

Azərbaycanda əlilliyə görə qruplar ləğv ediləcək. Bunu Dövlət Tibbi Sosial Ekspertiza və Reabilitasiya Agentliyinin direktoru Cavid Əbdülqədirov deyib. Onun sözlərinə görə, indiyə qədər I, II və III qrup üzrə əlillik təyinatları aparılıb: "Bu, sadəcə qrup təyinatı idi. Artıq əlilliyin yeni meyarlarına dair sənədlər Milli Məclisə verilib.

Əlilliyə görə qruplar ləğv ediləcək. İnsan orqanizminin itirilməsi faizlərlə ifadə olunacaq. İndiki I qrup 81-100, II qrup 61-80 faiz, III qrup 31-60 faiz olacaq. Eyni zamanda, 10-30 faiz üzrə isə sadəcə istehsalat zədəsi, peşə xəstəliyi olduğu halda əlillik qiymətləndirilməsi aparılacaq. Burada bir çox aparıcı ölkələrin təcrübəsi öyrənilir".

Agentlik sədri qeyd edib ki, bu il əlillik təyinatı ilə bağlı 80 min müraciət olub, onlardan artıq 25 mininə təyinat verilib.

**Tanınmış jurnalist Azər Həsrət "Şərq"ə açıqlamasında bildirib ki, Qarabağ qazilərinə əlillik dərəcələrinin verilməsi ilə bağlı çox diqqətli olmaq lazımdır. O qeyd edib ki, istehsalat qəzasında əlil olan şəxslə vətən üçün can qoyan şəxslər bərabər tutulmamalıdır:** "Hesab edirəm ki, xüsusən Qarabağ qazilərinə əlillik dərəcələrinin verilməsi, onların sosial problemlərinin həll edilməsi, pensiya təminatı və sair məsələlərdə çox diqqətli davranmaq lazımdır. Yəni dövlət mümkün olan maksimum yardımları etməlidir. Onlara güzəştlər mütləq, maksimum dərəcədə tətbiq edilməlidir. Təminatları həmişə daha öndə olmalıdır. Əlbəttə ki, əlilliklə bağlı dərəcələrin verilməsi, yaxud da ki, əlilliyin qiymətləndirilməsi məsələsində də diqqətli olmaq lazımdır. Tutaq ki, bir istehsalat qəzasında ayağını itirmiş adamla fikrimcə, vətən üçün can qoyarkən ayağını itirmiş adam bərabər tutulmamalıdır. Yəni burada əlavə güzəşt və əlavə hansısa ödəniş olmalıdır. Çünki bu adam bilərəkdən canını fəda etmək üçün gedib ora. Yəni bilib ki, qarşıda onu ölüm gözləyir və yaxud da xəsarət gözləyir. Ona görə də bunu bilərək getmiş adamla tutaq ki, təsadüfən avtomobil qəzasında ayağını, əlini itirmiş adamı bərabər tutmaq olmaz. O baxımdan düşünürəm ki, fərqləndirmə olmalıdır. Bu fərqləndirmə də təbii ki, Qarabağ qazilərinin, ümumiyyətlə, Vətən uğrunda savaşanların xeyrinə olmalıdır".

**Aynurə Pənahqızı**

## 408 qaziyə əlillik dərəcələri təyin olunub



**"Əyani müayinələr şəraitində Vətən müharibəsində xəsarət alan qazilərdən artıq 408 nəfərə müvafiq əlillik dərəcələri təyin olunub və proses davam edir".**

Bunu Dövlət Tibbi-Sosial Ekspertiza və Reabilitasiya Agentliyinin İdarə Heyətinin sədri Cavid Əbdul-Qədirov deyib.

Agentlik sədri xatırladıb ki, həmin qazilərə əlillik təyin olunması üçün ilk növbədə onlar Müdafiə Nazirliyinin Tibb idarəsi tərəfindən şəhadətləndirilməlidir: "Şəhadətnamədə travmanın, yaralanmanın müharibə ilə səbəb əlaqəsi müəyyənləşdirilir və bu sənədə əsasən də yekun mərhələ olaraq qurumumuz tərəfindən əlilliyin qiymətləndirilməsi aparılır".

## Atasının Aslanın vəfatından xəbəri yoxdur

Deyirlər, xəstədir, ona heç nə demirlər



**Xəbər verdiyimiz kimi, müğənni Aslan Hüseynov ötən gün avtomobil qəzasında vəfat edib.**

Aparıcı Elgiz Əkbər sənətçinin atasından danışıb. O bildirib ki, Aslanın atası xəstədir:

"Atasının Aslanın ölümündən xəbəri yoxdur. Deyirlər, xəstədir, ona heç nə demirlər".

*Qeyd edək ki, sənətçi Gəncədə anasının yanında dəfn edilib.*

## Ağdaşda insident baş verib, xəsarət alan var



**Ağdaş rayonunda sakinlər arasında insident baş verib.**

Bu barədə "Report"a vəkil Bəhruz Bayramov məlumat verib. Onun sözlərinə görə, hadisə Pirkəkə kəndində qeydə alınıb. Vəkil deyib ki, davaya səbəb kənd bələdiyyəsinə məxsus örüş sahələrində heyvanların otarılması olub. Nəticədə bir neçə şəxs yaralanıb. Daxili İşlər Nazirliyinin Mətbuat xidməti "Report"a faktı təsdiqləyib. Faktla bağlı Ağdaş Rayon Polis Şöbəsində araşdırma aparılır.

## "Mediland"da xəstənin komaya düşməsiylə bağlı araşdırma başladı



**Xəbər verdiyimiz kimi, Bakıda oynaq ağrıları üçün "Mediland" klinikasında MRT müayinəsi olunan 64 yaşlı Qəmzə Süleymanova komaya düşüb.**

Onun həyat yoldaşı Mirzə Süleymanov prokurorluğa müraciət edərək, hadisə ilə bağlı cinayət işi başlanılmasını və təqsirkar şəxslərin məsuliyyətə cəlb edilməsini istəyib. "Qafqazinfo" xəbər verir ki, məsələ barədə müraciətin ünvanlandığı Xətai Rayon Prokurorluğuna sorğu göndərilib. Prokurorluqdan bildirilib ki, 12 aprel 2021-ci il tarixdə Mirzə Süleymanov həyat yoldaşı Qəmzə Süleymanovanın səhhətində yaranmış problemlə əlaqədar müalicəsi zamanı yol verilmiş həkim səhlənkarlığına görə Xətai Rayon Prokurorluğuna müraciət edib: "Müraciət üzrə hazırda Xətai Rayon Prokurorluğunda araşdırma aparılır. Araşdırma zamanı həkim səhlənkarlığına yol verilib-verilməməsinin müəyyənləşdirilməsi məqsədilə məhkəmə-tibbi ekspertizası təyin olunub. Hazırda araşdırma aparılır".

# Nazirlər Kabinetinin qərarı doğrudur

*Bundan sonra müsabiqədən kənar ali təhsil müəssisələrinə qəbul olmuş şəxslər də təqaüd alacaqlar*



Doktorantlara, ali təhsil, orta ixtisas və peşə təhsili müəssisələrinin, həmçinin Azərbaycan Milli Elmlər Akademiyasının magistratura səviyyəsinin tələbələrinə təqaüdlərin təyin olunması və ödənilməsi Qaydasında dəyişiklik edilib.

**Təhsil eksperti Kamran Əsədov "Şərq"ə dəyişiklik barədə açıqlama verib. O qeyd edib ki, bu dəyişiklik Nazirlər Kabineti tərəfindən vaxtında atılmış bir addım idi:** "İndiyədək istər ali təhsil müəssisələrinin bakalavr, istərsə də magistratura pilləsinə qəbul zamanı təkcə Dövlət İmtahan Mərkəzinin keçirdiyi imtahan nəticələri ilə qəbul olmurdular. Eyni zamanda beynəlxalq yarış və olimpiadaların qalibləri də müsabiqədən kənar ödənişsiz ixtisaslara qəbul olurdular. Amma onlar ödənişsiz qəbul olsalar belə, təqaüd almırdılar. Çünki onların minimum bal tələbləri əsas götürülürdü. Buna görə də beynəlxalq yarış və olimpiadaların qalibləri pulsuz həmin ixtisas üzrə qəbul olmalarına baxmayaraq təqaüddən kənar qalırdılar. Nazirlər Kabineti tərəfindən edilmiş yeni dəyişikliyə əsasən, bundan sonra müsabiqədən kənar ali təhsil müəssisələrinə qəbul olmuş şəxslər qəbul jurnallarında adları çıxdıqdan və tələbə statusunu aldıqdan sonra təqaüd alacaqlar. Bu onların sosial vəziyyətinin yaxşılaşdırılması istiqamətində müsbət addımdır".



**K.Əsədov magistratura pilləsində təhsil alanların təqaüd məsələsinə də toxunub:** "Burada magistratura pilləsində təhsil alanların təqaüd məsələsində də dəyişiklik edilib. Çünki indiyədək onların təqaüdləri 150 ballıq şkala ilə həyata keçirilirdi. Bilirik ki, artıq Dövlət İmtahan Mərkəzi magistraturaya qəbul imtahanlarında maksimum balı 100 bal edib. Əvvəllər bu, 150 bal idi. İndi edilən dəyişikliyə görə magistratura pilləsində iki istiqamətli təqaüd olacaq. Bir, əlaçı təqaüddür, digəri 91-dən yuxarı, bir də adi təqaüdlər. Hesab edirəm ki, bu, rəqabət mühitini artıracaq. Nəticədə tələbələr daha çox 91 baldan yuxarı yüksək nəticə göstərərək əlaçı təqaüdü almaqda maraqlı olacaqlar. Bu da onların birbaşa keyfiyyətini artıracaq. Yəni edilən təqaüdlə bağlı dəyişikliyin mahiyyəti ondan ibarətdir ki, indi artıq yalnız 91 baldan yuxarılar əlaçı, digərləri isə magistratura pilləsində adi təqaüd alacaq".

**Aynurə Pənahqızı**

# İslamın insana verdiyi dəyər çox yüksəkdir



*"Daha yaxşı olar ki, iftar mərasimlərini fərdi evlərdə ancaq ailə üzvlərimizlə birlikdə keçirək"*

Dünyada olduğu kimi Azərbaycanda da pandemiya davam edir. Belə bir zamanda Qafqaz Müsəlmanları İdarəsinin (QMİ) Qazilər Şurası fətva verib. İnsanlara pandemiya dövründə kütləvi iftar süfrələrində toplaşmamaları tövsiyə edilib.

Eyni zamanda Misirdə Ramazan bayramı ilə bağlı xeyriyyə məclisləri qadağan olunub, Dağıstan müftisi müsəlmanları pandemiyaya görə əhalini məscidlərə getməkdən çəkindirmək üçün çağırışlar edib.

**QMİ-nin fətva şöbəsinin imamı, ilahiyyatçı Samid Quliyevin "Şərq"ə açıqlamasına görə, artıq 2-ci ildir ki, Ramazan ayını pandemiya dövründə keçiririk:** "Günümüzdə aktual məsələlərdən biri əhalinin iaşə obyektlərində, restoranlarda, kafelərdə və yaxud fərdi evlərdə bir yerə toplaşıb iftar mərasimlərində olmasıdır. Amma müqəddəs Ramazan bayramı islamın tərkib hissəsidir. İslam dini də hər zaman özündə bütün gözəllikləri ehtiva edir. Dinimiz insanların təhlükədə olmasını istəmir. Çünki islamın insana verdiyi dəyər çox yüksəkdir.

Daha yaxşı olar ki, iftar mərasimlərini fərdi evlərdə ancaq ailə üzvlərimizlə birlikdə keçirək. Təkcə iftar süfrəsində deyil, başqa vaxtlar da ailə üzvlərimizlə təmasda oluruq. Kütləvi toplaşma olan məclislərdən uzaq durmaq lazımdır.

Çünki belə məclislərdə olub evə gəldikdə ailə üzvlərimizi də koronavirusa yoluxdura bilərik. Yaxşı olar ki, mübarək ayda ehsan vermək istəyənlər ya kasıb ailələrə ərzaq yardımı etsinlər, ya da qocalar və uşaqlar evinə yeməklər aparsınlar.

Bu həm də islamın dəstəklədiyi yoldur. Düzdür, islama görə ehsanın paylanması vacib deyil, lakin müstəhəb əməldir. "Müstəhəb" sözünün də dilimizə tərcüməsi, "gözəl", "bəyənilmiş" deməkdir. Bu baxımdan qeyd etdiyim yolla ehsan vermək daha məqsədəuyğundur.

Yaxud da qonşuda və qohumda tanıdığınız aztəminatlı ailələrə Ramazan hədiyyəsi kimi ərzaq yardımı etmək olar".

**Yeganə Bayramova**

## Hələlik iqtisadiyyatımız təhlükə ilə üzləşməyib

### Mərkəzi Bankın ehtiyatlarının azalması o qədər də kəskin deyil




**2021-ci il mayın 1-nə olan vəziyyətə görə, Azərbaycan Mərkəzi Bankının valyuta ehtiyatları 6,367 milyard dollar təşkil edib.**

Bu barədə Mərkəzi Bankın hesabatına istinadən məlumat verilib. Hesabata əsasən, Mərkəzi Bankın valyuta ehtiyatları 2020-ci ilin eyni dövrü ilə müqayisədə 0,5 faiz azalıb. Eyni zamanda, 2021-ci il yanvarın əvvəli ilə müqayisədə valyuta ehtiyatları 0,2 faiz və ya 11,4 milyon dollar azalıb. **Mövzu ilə bağlı "Şərq"ə açıqlama verən iqtisadçı-ekspert Natiq Cəfərli bildirib ki, Mərkəzi Bankın ehtiyatlarının azalması hazırda o qədər də kəskin deyil.** İqtisadçı qeyd edib ki, bu rəqəm kəskin olmadığına görə, hələlik onun iqtisadiyyata, makroiqtisadi təsirləri haqqında danışmaq tezdir. Sadəcə, həm Neft Fondunun, həm də Mərkəzi Bankın ehtiyatlarının azalması keçən ildən baş verən pandemiya dövründə bəzi makroiqtisadi göstəricilərin də zəifləməsi ilə əlaqədardır. **N.Cəfərli əlavə edib ki, ancaq bu tendensiya düşünüdürücüdür:** "Əgər bu tendensiya davam etsə və növbəti rüblərdə də biz eyni nəticəni görsək, artıq o zaman bu məsələlərin daha ciddi araşdırılmasına ehtiyac var. O zaman onun gələcəkdə manatın məzənnəsinə və makroiqtisadi təsirləri ilə bağlı daha geniş fikir yürütmək mümkün olacaq".

**Aynurə Pənahqızı**



## Gəncədə evləri su basdı

### FHN əməkdaşları əraziyə cəlb olunub





**Gəncədə səhər saatlarından yağan intensiv yağışlar nəticəsində bəzi əraziləri - həyətyanı sahələri və evlərin zirzəmilərini su basıb.**

Fövqəladə Hallar Nazirliyindən (FHN) "Şərq"ə verilən məlumatda bildirilir ki, bu gün səhər saatlarından başlayaraq ölkə ərazisində hava şəraiti kəskin dəyişib, güclü külək respublikanın ayrı-ayrı bölgələrində intensiv yağıntılarla müşayiət olunub.

Mayın 5-i səhər saatlarından yağan intensiv yağışlar nəticəsində Gəncə şəhərində bəzi fərdi yaşayış evlərinin zirzəmilərinə, həyətyanı sahələrə, küçə və prospektlərə yağış sularının dolması ilə əlaqədar Fövqəladə Hallar Nazirliyinin "112" qaynar telefon xəttinə müraciətlər daxil olub.

Müraciətlər əsasında Nazirliyin Gəncə Regional Mərkəzinin müvafiq canlı qüvvə və texnikası yağış sularının yığıldığı ərazilərə cəlb olunub. Görülmüş operativ tədbirlər nəticəsində əksər ərazilərdə suyun çəkilərək kənarlaşdırılması təmin edilib, bəzi ünvanlarda isə işlər hazırda davam etdirilir.

# Narazıların sayı-hesabı yoxdur

Milli Məclisin ötən gün keçirilən iclasında "İpoteka haqqında" qanunda dəyişiklik edilməsi barədə məsələ müzakirəyə çıxarılıb. Dəyişiklik layihəsinə əsasən, qanuna yeni 43.7-1-ci maddə əlavə olunur. Həmin maddəyə görə, təkrar hərrac baş tutmamış elan edildikdə, ipoteka predmetinin ipoteka saxlayan tərəfindən əldə olunması barədə ipoteka saxlayan və hərracın təşkilatçısı 30 təqvim günü ərzində müqavilə qüvvəsinə malik olan protokol imzalayacaqlar.



## Vətəndaşlar ipoteka kreditlərinin verilməsində şəffaflıq tələb edir

Bununla yanaşı, ipoteka ilə bağlı Vergi Məcəlləsində, Mülki Məcəllədə, "Daşınmaz əmlakın dövlət reyestri haqqında" qanuna dəyişikliklər təklif edilir. İrəli sürülən dəyişikliklərdə ipoteka saxlayanın məhkəmə qaydasında təmin olunmuş tələbi əsasında keçirilmiş təkrar hərrac baş tutmamış elan edildikdə, ipoteka predmetinin ipoteka saxlayan tərəfindən əldə edilməsi zamanı sadələşdirilmiş verginin ödənilməsi qaydalarının və ipoteka predmetinin ipoteka saxlayan tərəfindən əldə edilməsi zamanı mülkiyyət hüququnun rəsmiləşdirilməsinin və əldə edilmiş əmlakın satışı zamanı əsas borc həcmində dövriyyənin vergidən azad olunmasının qanunvericiliklə dəqiq tənzimlənməsi nəzərdə tutulub. Dəyişikliklər müzakirələrdən sonra səsverməyə qoyularaq birinci oxunuşda qəbul edilib.

**İqtisadçı-ekspert Əkrəm Həsənov "Şərq"ə açıqlamasında bildirib ki, ipoteka kreditlərinin verilməsində ilk olaraq şəffaflığa ehtiyac var. O qeyd edib ki, bu günləri bir çox vətəndaşlarımızın ipoteka kreditləri ilə bağlı şikayətləri var:** "Vətəndaşlarımız şikayət edir ki, ipoteka krediti ala bilmirlər. Şikayətlərdən biri də budur ki, kimisi rahat aldığı təqdirdə, o birisi çox çətinliklə əldə edir, yaxud da ki, etmir. Çox təəssüf ki, bu qərarların hansı meyarlar əsasında verildiyi məlum deyil. Yəni niyə birinə verirlər, birinə vermirlər? İstisna deyil ki, o, təyinatı üzrə istifadə edilmir. Məsələn, hansısa bir sahibkara pul lazımdır. Bildiyimiz kimi, bu kreditin də maksimal faizi 8-dir. Yəni sahibkara ucuz kredit lazımdır. O gedir kimləsə danışır və guya ki, qohumunun, tanışının, dostunun evini alır. Məlumdur ki, adətən həmin evi formal alırlar. Əslində isə aldıqları pulu başqa yerə istifadə edirlər, yəni evi faktiki əldə eləmirlər. Nəticədə əldə etdikləri pulu gətirib banka 12 faizlə qoyurlar. Burada qalan 4 faizi də qoyurlar cibinə. Nəticədə xoşagəlməz mənzərə ortaya çıxır".

Ə.Həsənov vurğulayıb ki, bu prosesdə şəffaflığa xüsusi diqqət yetirilməli və mühüm qaydalar tətbiq olunmalıdır: "Hesab edirəm ki, hər bir ipoteka krediti verilən şəxs haqqında İpoteka və Kredit Zəmanət Fondunun saytında məlumat olmalıdır. Yəni filankəsə nə qədər pul verildi, ev alındı, həmin şəxs harada işləyir və s. bütün bu kimi şərtlər öz həllini tapmalıdır. Bu halda müraciət edib kredit ala bilmədikdə nə səbəbə kredit almadığını anlayacaq. Ona görə də hesab edirəm ki, bu işdə tam şəffaflığa ehtiyac var".

**Aynurə Pənahqızı**

# Qərar verilib



## Samirə Efendini "Avroviziya-2021"də məşhur dizayner geyindirəcək

Azərbaycan təmsilçisi Efendinin "Avroviziya-2021" səhnəsində çıxışı üçün nəzərdə tutulan geyiminin dizaynı dünya şöhrətli modelyer Rüfət İsmayıla həvalə edilib. "Affair" brendinin təsisçisi Rüfət İsmayılın kolleksiyaları Dəb Həftəsində Nyu-York, Milan, Florensiya, Tehran və digər şəhərlərdə təqdim olunub.

R.İsmayılın kolleksiyası həmçinin məşhur kişi moda sərgisi Pitti Uomo-da nümayiş etdirilib. Rüfət İsmayılın geyimləri bir çox Hollivud ulduzlarının seçimi olub, onların arasında Cey Lo, Beyons, Aşanti, Dua Lipa və bir çox başqa dünya şöhrətli ulduzlar yer alır.

*Rüfət İsmayıl bildirib ki, Efendi üçün geyim hazırlayarkən əsas məqsəd güclü, özünə inamlı qadının ruhunu çatdırmaq idi:*

"Başqa vacib məqam isə milli elementlərin mövcudluğudur, hansı ki, bütün bunların bir obrazda birləşməsi elə də asan deyildi. Səhnədə sənətçini heç də ondan geri qalmayan gözəl obrazlarda olan rəqqaslar tamamlayacaqlar və biz əminik ki, səhnə kostyumları vasitəsilə istədiyimiz ideyanı tamaşaçılara çatdıra biləcəyik. Ən əsası isə Efendinin geyinəcəyi kostyumda özünü qəlbləri fəth edən biri kimi hiss etməsidir, axı sənətçinin geyimi öz üzərində necə təqdim etməsi çox önəmli məqamdır".

Efendinin kostyumu qiymətli və yarıqiymətli daşlarla bəzədiləcək, onda müasir tərzdə milli elementlərin birləşməsi olacaq.

Xatırladaq ki, Efendi "Avroviziya-2020" mahnı müsabiqəsində də ölkəmizin təmsilçisi idi, lakin COVID-19 pandemiyası ilə əlaqədar Avropa Yayım Birliyinin (AYB) qərarı ilə müsabiqə təxirə salınmışdı.

*Qeyd edək ki, şüarı "Open up!" olan "Avroviziya-2021" mahnı müsabiqəsinin yarımfinal mərhələləri mayın 18-i və 20-də, final mərhələsi isə mayın 22-də Rotterdam (Niderland) şəhərində keçiriləcək. Təmsilçimiz Efendi birinci yarımfinalda çıxış edəcək.*

**Samirə**

# "Niyə belə tez qəbiri özünə ev seçdin?"

Fatimə Aslan Hüseynovun məzarını ziyarət edib



**Tanınmış rəqqasə Fatimə Fətəliyeva dünən avtomobil qəzasında dünyasını dəyişən müğənni Aslan Hüseynovun məzarını ziyarət edib.**

*"Şərq" xəbər verir ki, onun yanında meyxanaçı Samirə Yusifqızı da olub. Fatimə mərhumun məzarından videosunu paylaşaraq bu sözləri yazıb:* "Aslan, axı niyə belə tez qəbiri özünə ev seçdin? Yoxluğun bizi məhv etdi. Güləruz Aslanımız son mənzilə tələsməməli idi. Yerin behişt olsun. Anan səni çox sevirdi, tezliklə qovuşdunuz".

*Qeyd edək ki, Aslan Hüseynov mayın 4-də Qaradağ ərazisində avtomobil qəzasında vəfat edib. 55 yaşlı müğənni xəstəxanaya çatdırılana qədər canını tapşırıb.*

**Samirə**

# Baloğlan xatirələrdə, ürəklərdə qaldı

Meyxanaçı Samirə Əməkdar artistin 3 mərasimində iştirak edib



**Meyxanaçı Samirə Yusifqızı yaxın günlərdə koronavirusdan vəfat edən Əməkdar artist Baloğlan Əşrəfovdan danışıb.**

"Şərq" xəbər verir ki, o, mərhum barədə fikrilərini "Elgizlə izlə" verilişində səsləndirib. S.Yusifqızı B.Əşrəfovun ölümü ilə şok yaşadığını söyləyib: "O, həyatsevər, yaşamağı sevən, pozitiv insan idi. Onun gedişi incəsənət aləmini "yerə çırpdı". Biz 3 mərasimində iştirak etdik. Pandemiya ilə əlaqəli dəfninə gedə bilmədik. Polislər söylədi ki, tez baş çəkib çıxın. Evdə də yalnız öz ailəsi, yaxınları vardı. Sonra da məzarını ziyarət edib qayıtdıq. Əfsuslar olsun ki, onu qəbirdə tək qoyduq. Xatirələrdə, ürəklərdə qaldı".

**Samirə**

# "Kaş mən də sadə ev xanımı olardım"

Afət Fərmanqızı: "Kartof da əkərdim, heyvana da baxardım"



**"Mahnı ifa edib paylaşmışam. Orada fortepianoda sadəcə akordlardan istifadə edirəm.**

Bir xanım yazıb ki, "vay, vay biabrçılıq". Soruşdum ki, xanım, nə işlə məşğulsunuz ki, musiqi haqda fikir bildirirsiniz? Dedi, Tovuzda kartof əkirəm. Bir az yazışdıq, sonra qayıtdı ki, əslində pis oluram, baxıram bahalı maşınlarınız, evləriniz var, mən isə burada əziyyət çəkirəm. Qərar verdim ki, artıq iradlara fikir bildirməyəcəm. Bəziləri başqalarının yaxşı gününü özlərinə bədbəxtlik kimi qəbul edirlər".

**"Şərq" xəbər verir ki, bu sözləri instaqramda paylaşdığı videoda müğənni Afət Fərmanqızı deyib. O, paylaşıma bu sözləri də əlavə edib:** "Dəhşətdir. Axırımız hara gedir? Allahın yazdığı qismətdir. Mən günahkar deyiləm. Kartof əkmək, öz zəhməti ilə əziyyət çəkib halal pul qazanmaq ən gözəl bəxtdir. Bizim isə gecəmiz-gündüzümüz yoxdur.

Yollarda, qəzalardayıq. Adımıza da yüz cür söz qoşurlar. Nə uşağımız üzümüzü görə bilir, nə də qohum-əqrəba. Kaş mən də sadə ev xanımı olardım, kartof da əkərdim, heyvana da baxardım".

**Samirə**

# Pəhriz Məleykə Əsədovanın səhhətində problem yaratdı



**Pəhriz saxlamaq Xalq artisti Məleykə Əsədovanın səhhətində problem yaradıb.**

Aktrisa bu haqda "ATV maqazin onlarla" proqramında deyib. O bildirib ki, kökəlməmək üçün yeməkdən imtina edibmiş:

"Özümü çox pis hiss etdim. Ürəyimin də təzyiqi aşağı düşmüşdü, 50 idi. Həkimlər müalicələr etdi. Yemək az yeyirdim, kökəlmək istəmirdim. Pəhrizə, idmana meyilliyəm. Çox arıqlamışdım, ayaq üstə dura bilmirdim. Sistemlər, ürəyimə güc verən dərmanlar, iştah artıran vitaminlər içdim. İndi üç-dörd kiloqram kökəlmişəm".

# Flora Kərimova Aslan Hüseynovdan yazdı

"Yoxluğuna ağlayacağım ağlıma gəlməzdi"



**Xalq artisti Flora Kərimova avtomobil qəzasında dünyasını dəyişən müğənni Aslan Hüseynovla bağlı paylaşım edib.**

*"Şərq" xəbər verir ki, sənətkar mərhumun fotosunu paylaşaraq bunları yazıb:* "Aslan, səni çox sevirəm, oğul. Səni hər xatırladıqca üzümdə bəxş etdiyin təbəssümün vardı. Bu gün yoxluğuna ağlayacağım ağlıma gəlməzdi. Niyəsi, bəlkəsi, kaşkisi olmayan qədərimizi yaşayırıq. Uca yaradandan sənə rəhmət diləyirəm".

**Samirə**

# Zaur Kamal o gülləri ala bilmədi

Amma dostu Aygün Kazımovaya 1001 ədəd qızıl gül göndərdi



**Aparıcı Zaur Kamal "Onun sirri" verilişinin qonağı olub.**

O, proqramda efirə tək çıxmaq istəyən müğənnilərdən danışıb.

**"Şərq"in məlumatına görə, Zaur deyib ki, hər müğənnini proqrama tək dəvət etmək olmaz:**

" Azərbaycanda bir-iki sənətçini, məsələn, Aygün Kazımovanı, Röya Ayxanı və Xumar Qədimovanı verilişə tək çağırmaq olar".

Z.Kamal onu da əlavə edib ki, efirə yalnız gələn müğənnilərə sevənləri, yaxud da sevgilisi də gül göndərir: "Ötən dəfə Aygün Kazımova mənə dedi ki, 1001 ədəd qızıl gül gətirəcəksən. Düzdür, mən almadım. Həmin güllərin biri 5 manatdır, hamısı birgə 5000 AZN edir. Düşündülər ki, mən almışam. Amma bir dostumuzdan xahiş etdik, o da sevə-sevə göndərdi. Çünki Aygün Kazımova gəlirdi. Qonaq Röya da olsa, eyni jesti edərdik".

**Samirə**

# "Onu deyənin dili qurusun"

Şəbnəm Tovuzlu Hacıdan ayrılmayıb



**Müğənni Şəbnəm Tovuzlu instaqramda növbəti dəfə paylaşım edib. Onun mahnı ifa edərkən çəkilən videosu izləyiciləri tərəfindən birmənalı qarşılanmayıb.**

*"Şərq" xəbər verir ki, onun paylaşımına bir izləyicisi "Şəbnəm xanım, axı sizin özünüz boyda qızınız var, bir az sadə olun, siz ərli qadınsız. Qorxmursuz sizi atar? Sizin bu qədərmi pula ehtiyacınız var?" rəyini yazıb. Müğənni həmin "comment"i cavabsız qoymayıb:* "Başa düşmədim? Nə olub? Haramızı açıb çöldə qoymuşuq? Biz müğənniyik, mahnılarımıza uyğun hərəkət edirik. Allaha şükür, ailəmiz övladlarımız var". Bir digər izləyicisi isə müğənniyə sual ünvanlayıb: "Bəs deyirlər Hacı sizdən ayrılıb. Bu sevgi mahnılarını kimə həsr edirsiniz?".

Ş.Tovuzlu isə boşanması ilə bağlı yayılan xəbərləri bir daha yalanlayıb: "Onu deyənin dili qurusun. Allah eləməsin. Bizim atamız başımızın üstündədir".

**Samirə**

# Son 40 ildə

## Yaponiyada uşaqların sayı azalıb



Yaponiyada uşaqların sayı son 40 ilin ən aşağı həddinə düşüb və bu, əhalinin sürətlə qocaldığını bir daha təsdiq edir.

Bu barədə məlumat hər il mayın 5-də qeyd edilən Uşaqlar Günü ərəfəsində Yaponiya Daxili İşlər və Kommunikasiya Nazirliyi tərəfindən yayılıb. Bildirilir ki, cari il aprelin 1-nə olan son məlumatlara görə ölkədə 14 yaşdan az olan uşaqların sayı 14,93 milyon nəfər təşkil edib. Bu, bir il əvvəlki göstərici ilə müqayisədə 190 min nəfər azdır və 1950-ci ildən bəri ən aşağı göstəricidir.

Qeyd edilir ki, uşaqların əhalinin digər kateqoriyaları ilə müqayisədə sayı da son 47 ildə ən aşağı həddə düşərək 11,9 faiz təşkil edib. (azərtac)

BMT-nin hər il dərc edilən demoqrafik göstəricisinə görə də Yaponiya 40 milyondan çox əhalisi olan 33 ölkə arasında bu göstəriciyə görə ən aşağı fərqə malikdir.

Nazirliyin məlumatına görə, uşaqlar arasında oğlanların sayı 7,65 milyon, qızlar isə 7,28 milyon nəfər təşkil edir.

Həmçinin bildirilir ki, uşaqlar arasında 2 yaşına qədər olanların sayı 2,65 milyon nəfərdir. Qeyd edilir ki, bu göstərici də digər yaş qrupları ilə müqayisədə azlıq təşkil edir və ölkə üzrə doğumun sayının azaldığını təsdiq edir.

*Məlumat üçün qeyd edək ki, Yaponiyada uşaqların sayı özünün pik həddinə 1954-cü ildə çatıb və 29,89 milyon nəfər təşkil edib. Ötən əsrin 70-ci illərində bu rəqəm qismən sabit qalsa da, 1982-ci ildən bəri azalmaqda davam edir.*

## Təyyarə evin üstünə düşüb

**ABŞ-ın Missisipi ştatında yüngülmühərrikli təyyarə qəzaya uğrayıb.**



Trend-in məlumatına görə, təyyarə yaşayış evinin üstünə düşüb.

Hadisə nəticəsində 2 nəfər həlak olub. Qəza bölgəsində avtomobil yolu bağlanıb. Hadisə ilə bağlı araşdırma aparılır.

## Billin keçmiş sevgilisi ortaya çıxıb

### Boşanmalarına səbəb xəyanət olub

**"Microsoft"un yaradıcısı Bill Qeyts və 27 illik həyat yoldaşı Melinda Qeytsin boşanma xəbəri günlərdir gündəmdən düşmür.**



65 yaşlı iş adamı rəsmi tvitter hesabında özünün və 56 yaşlı xanımının boşanma qərarı aldığını yazıb. Bu qərardan sonra cütlüyün ayrılıqları ilə bağlı bir çox iddia ortaya atılıb.

İngilis "Daily Mail" qəzeti boşanmaya səbəb Billin keçmiş sevgilisi Ann Uinblad olduğunu yazıb. 1980-ci ildə sevgili olan cütlük 1987-ci ildə ayrılıb. Qeyts həmin il Melinda ilə evlənib.

*Deyilənə görə, iş adamı keçmiş sevgilisini heç vaxt unutmayıb. Milyarder evli olduğu ərəfədə də tez-tez Ann ilə görüşüb. Hətta onların hərdən biznesmenin sahillərdən birində yerləşən evində qaldıqları bildirilib.*

## 3 həftəyə kökəlib

### O, hətta bunun üçün öz aşpazına da təşəkkür edib



**Amerikalı məşhur aktyor Mark Uolberq son halı ilə gündəmə gəlib.**

Axşam.az xəbər verir ki, hər zaman bədən əzələləri ilə diqqət çəkən 49 yaşlı aktyor sosial şəbəkədə fotolarını paylaşaraq 3 həftə ərzində xeyli kökəldiyini bildirib. O, hətta bunun üçün öz aşpazına da təşəkkür edib.

Hollivud ulduzunun qısa müddət ərzində çəki alması izləyicilər tərəfindən də təəccüblə qarşılanıb.

*Qeyd edək ki, aktyor bir müddət əvvəl yeni filminə görə 13 kiloqram kökəlməli olduğunu söyləmişdi.*

## Sevgili olduqlarını etiraf etdi



**Türkiyəli aktrisa Hande Erçel həmkarı Kərəm Bürsin ilə sevgili olduqları barədə ilk dəfə danışıb.**

Axşam.az xəbər verir ki, aktrisa müxbirlərin "Münasibətiniz xeyirli olsun" sözlərinə belə münasibət bildirib:

"Təşəkkür edirəm, hər şey çox gözəl davam edir".

O, "Kərəm Bürsin Amerikadadır" sualına isə "Yox buradadır, çəkilişlərimiz başlayıb" deyə, cavab verib.

*Qeyd edək ki, "Sen çal kapımı" serialında birgə rol alan cütlük Maldivdə istirahətindən qayıdarkən hava limanında əl-ələ görüntülənmişdi.*

## BMT narahatdır

### 5 ilin ən ciddi ərzaq böhranı yaşanır



**Ərzaq təhlükəsizliyilə bağlı kəskin vəziyyətlə üzləşən, həyatda qalmaq üçün təcili yardıma möhtac olan insanların sayı son 5 ilin ən yüksək həddinə çatıb.**

"Report" xəbər verir ki, bu barədə Ərzaq Böhranlarına qarşı Qlobal Şəbəkənin hesabatında bildirilir. Belə ki, pandemiyanın tüğyan etdiyi 2020-ci ildə münaqişələr, iqtisadi böhranlar, təbii fəlakətlər nəticəsində 55 ölkə və bölgənin azı 155 milyon sakini kəskin aclıqla üzləşib ki, bu da əvvəlki ilə nisbətən 20 milyon nəfər çoxdur. Bununla da ilk belə hesabatın açıqlandığı 2017-ci ildən bu yana dünyada ərzaq təhlükəsizliyi böhranının durmadan artması bir daha məlum olub.

Əvvəllər daha çox Afrika ölkələrində qarşıya çıxan ərzaq təhlükəsizliyi əskikliyi probleminin artıq Əfqanıstan, Suriya, Yəmən, Haiti kimi ölkələrə də sirayət etdiyi, ötən il ən kəskin ərzaq böhranı ilə üzləşən on ölkə sırasına sadalananların daxil olduğu bildirilir. Aclıq problemini şərtləndirən başlıca amillər arasında silahlı münaqişələr, bir çox hallarda COVID-19 pandemiyasının xüsusi rol oynadığı iqtisadi sarsıntılar, habelə meteorologiya əsaslı təbii fəlakətlər qeyd olunur.

*Ərzaq Böhranlarına Qarşı Qlobal Şəbəkə 2016-cı ildə FAO, Avropa İttifaqı, Dünya Ərzaq Proqramı tərəfindən ərzaq böhranlarına qarşı mübarizə üçün təsis olunub.*

## Seda Sayan 4 milyon dollara villa alıb

### Sənətçi Qayrettepedən Boğaza köçür



**Türkiyənin ən varlı müğənnilərindən olan Seda Sayan Qayrettepedən Boğaza köçür.**

Sənətçi 4 milyon dollara villa alıb. Hazırda Seda yeni evinin təmir işləri ilə məşğuldur. Sayan bu günə kimi qazandığı pulların böyük hissəsini mülklərə xərcləyib. İstanbulda 30 evi, Bodrumda 3 villası, Londonda bir mənzili olan ifaçı Türkiyənin varlı əmlakçısı adlandırılır.


**Beynəlxalq İxtiraçılıq və Biznes İnstitutu**

**KURSLAR**

**-MÜHASİBAT** (2 AY)

**-Mobil telefonların təmiri** (3 ay)

**-KOMPYUTER** (1-3 AY)

**-KOSMETOLOGİYA** və **VİZAj** (3 AY)

**-KİŞİ** və **QADIN BƏRBƏRİ** (1-3 ay)

**-Dizayn** (3-6ay)

**-Masaj** (3 ay)

**-Biçmə - Tikiş** (3 ay)

**-Məktəb Psixologiyası** (12 ay)

**Tel: (012) 489-08-84**

**Mob: (070) 241-28-67**

**www.az-baku.com**



Baş redaktor: **Akif Aşırlı**
Baş redaktorun I müavini: **Yusif Nəzərli**
Redaktor: **Ayyət Əhməd**

**Reportyorlar qrupu:** Məlahət Rzayeva, Şəymən Bayramova, İsmayıl Qocayev, Yeganə Bayramova, Kənan Eynuroğlu, Kənan Novruzov, Aynurə Pənahqızı
**Texniki heyət:** Rüfət Dadaşov, İmamcan Əliyev

Qəzet "**Şərq**"in kompyuter mərkəzində yığılır, səhifələnir və "**Azərbaycan**" nəşriyyatında çap olunur

Qəzet Mətbuat və İnformasiya Nazirliyində qeydə alınıb. Lisenziya: 535
**www.sherg.az**
e-mail: **sherq-1996@mail.ru**

Ünvan: Mətbuat prospekti, "**Azərbaycan**" nəşriyyatı.
**Telefon: 447-32-41 538-44-50, internet 538-44-15, İndeks: AZ1073**

**Hesab nömrəsi: "Kapitalbank"ın ASC 1 saylı Nəsimi filialı 9900003611**
SWIFT BIK AII-BAZ2X h/h AZ17AIIB38070019441100466111
Kod 200112 M/H AZ37NABZ01350100000000001944
VÖEN 1300414651 İndeks: 0330 Tirajı: 2550 Sifariş: 819

# Həkimlər şoka düşdü

Qadın bir dəfəyə 9 uşaq doğdu



**Fəsin Kasablanka şəhərində Mali vətəndaşı olan qadın 5 qız və 4 oğlan olmaqla 9 uşaq dünyaya gətirib.**

"Şərq" türk mediasına istinadən xəbər verir ki, Halime Sisi Kasablankadakı xəstəxanada uşaqlarını qeysəriyyə yolu ilə qucağına alıb.

Ana və uşaqların səhhətinin yaxşı olduğu bildirilib. Məlumata görə, Halime Sisi hamilə ikən körpələrinin sağlamlıq durumunu öyrənmək üçün yoxlamalardan keçəndə bətnində 7 körpənin olduğu deyilib. Əməliyyat zamanı isə 9 körpə dünyaya gəlib. Doğuşla əlaqədar xərclərin Fəs hökuməti tərəfindən qarşılandığı vurğulanıb.

**Yeganə**

# Bu işi ancaq o bacarır

100-dən çox fərqli heyvanla "selfi" çəkdirib





**İrlandiyalı Allan Diksonun peşəsi hər kəsin diqqətini çəkir. "Şərq" "Haberturk.com"a istinadən bildirir ki, 33 yaşlı Dikson heyvanlarla 5 dəqiqə ilə 3 saat arasında vaxt keçirərək onları "selfi" çəkdirməyə razı salır.**

Dikson deyir ki, heyvanlarla "selfi" çəkdirmək üçün öncə onların özlərini təhlükəsiz hiss etmələrini təmin edir. Bunun üçün tez-tez yerdə süründüyünü və bu səbəbdən paltarının çox vaxt çirkli olduğunu söyləyir. Heyvanlarla birlikdə çəkiləcək ən yaxşı "selfi" üçün ipuçlarını verən Dikson bildirir ki, çox diqqətli olmaq və heyvanları təhrik etməmək lazımdır: "Əvvəlcə onların sizə inanmasına çalışın. Sizinlə şəkil çəkdirəndə rahat olarlarsa, nəticə əla olacaq". Diksonun ilk selfisi 2010-cu ildə bir köpəklə olub. Sonra Avstraliyada bir körpə kenquru ilə çəkdirdiyi "selfi" sosial şəbəkələrdə sözün əsl mənasında "partlayış" yaradıb. Hazırda turizm sektorunda marketoloq kimi çalışan Allan indiyə qədər 100-dən çox fərqli heyvanla "selfi" çəkdirib. O, üç il əvvəl Avstraliyanın "Ən yaxşı peşə" yarışmasına qatılaraq birinci yeri qazanıb.

**Yeganə**

# 4 dəfə boşanıb yenidən evləniblər

"Bal ayı"nı uzatmaq üçün hamını aldadıblar



**Nikah bağlayan cütlüklərə Tayvan hökuməti yalnız 8 günlük ödənişli məzuniyyət hüququ verir.**

Necə deyərlər, 8 gündən sonra hər kəs işinin başına! Tayvanlı cütlük isə bal ayının müddətini uzatmaq üçün ağlagəlməz hiyləyə əl ataraq hamını aldadıblar. "Şərq" "Milliyet.com"a istinadən bildirir ki, bal ayının müddətini uzatmaq üçün cütlük tam 4 dəfə boşanıb yenidən evlənib. Bununla da yeni evlənənlərə verilən 8 günlük məzuniyyət müddətini hər dəfə 8 gün uzadaraq 32 gün tətil ediblər. Cütlük 37 gün ərzində 10 gün aralıqlarla boşanma ərizəsi ilə müraciət edib, birbirindən "ayrılıb", sonra təkrar evləniblər. Bir növ evliliyi karuselə döndəriblər; fırlan ki, fırlanasan! Cütlük bankda çalışırmış. Növbəti dəfə iş yerinə izin almaq üçün müraciət etdiklərində bank rəhbərliyi durumdan şübhələnib və onlara daha ucazə verilməyib. Şübhələrin əsaslı olduğu ortaya çıxdıqda isə cütlük işdən qovulub. Üstəlik cərimə də edilibilər. Dünyada bal ayı üçün verilən məzuniyyət müddətləri müxtəlifdr. Tayvanda 8 gün olan məzuniyyət, Maltada cəmi 2 gün, Vyetnamda və Çində isə 3 gündür.

**Məlahət**



# Sonu çox qorxunc oldu

*İki dostunun da evlilik təklifini rədd etdi*



**Londonda hüquq təhsilini başa vuran 26 yaşlı gənc qız - Mahira Zülfikar onunla evlənmək istəyən 2 dostunun da təklifini rədd edib.**

Buna görə gənc qız davamlı təhdidlər almağa başlayıb. Bir gün qızın əmisi Məhəmməd Nəzirə naməlum nömrədən zəng gəlib. Əmisi qardaşı qızınn mənzilinə getdiyində qorxunc mənzərə ilə qarşılaşıb. Əmisi Mahiranı qan gölünün içində görüb. Pakistan polisi Lahorda bir ingilis qadının qətlində şübhəli bilinən 2 nəfəri axtarır. Pəncab polisinin tibbi ekspertiza rəyi əsasında verdiyi açıqlamada Mahiranın boynundan və qolundan vurulduğunu bildirilir. Türkiyə mətbuatı BBC-yə istinadən yazır ki, Mahira Zülfikarın 2 nəfər tərəfindən təhdid olunmasına dair sözügedən xəbər agentliyi rəsmi sənədlər əldə edib. Cinayətin istintaqını aparan baş istintaq məmuru BBC-yə polis əməkdaşlarının İslamabad və Lahordakı ünvanları hədəf aldığını, lakin hələ də heç kəsin həbs edilmədiyini deyib. Mahiranın əmisi isə istintaqa deyib ki, qardaşı qızı evlilik təkliflərini rədd etdikdən sonra hər iki dostu ilə aralarında anlaşılmazlıq yarandığını və dostların onu "qorxunc nəticələr"lə təhdid etdiklərini söyləyibmiş. Axtarış-əməliyyat tədbirlərinə cavabdeh şəxs bunu da deyib ki, Mahiranın mobil telefonu cansız bədəninin yanında tapılıb. Telefon üzərində təhqiqat başlayıb, təhlükəsizlik kameraları da yoxlanır. Əməliyyatçı iki şübhəlinin izində olduqlarını bildirib.

**Məlahət**

# Film kimi olay yaşandı

Karantin evindən qaçmaq istədi, həyatını itirdi



**Türkiyənin Maltepe bölgəsində filmlərə səhnə ola biləcək faciəvi olay yaşanıb.**

Cəza müddətinin başa çatması ilə Maltepe cəzaçəkmə müəssisəsindən buraxılan Pakistan vətəndaşı 36 yaşlı Əli Muxtar koronavirus təhlükəsi nəzərə alınaraq karantin yurduna göndərilib. Lakin keçmiş məhbus, görünür, daha artıq "qapalı" qalmaq istəməyib və döşəkağılarını və pərdələri uc-uca bağlayaraq kəndir düzəldib və karantin binasının 12-ci mərtəbəsindəki pəncərədən aşağı enməyə başlayıb. Əli Muxtar 6-cı mərtəbəyədək gəlib çatıb. Lakin bu zaman döşəkağı və pərdələr bir-birindən qopub. Əli Muxtar 25 metr yüksəklikdən yerə çırpılaraq həyatını itirib. Keçmiş məhbus oğlanlar üçün nəzərdə tutulan Maltepe Memar Sinan Tələbə Yataqxanasına yerləşdirilibmiş. Əli Muxtar yataqxanada 2 gün qalıb, sonra isə qaçmağa qərar verib. Nəticə isə məlumdur. Əli Muxtarın cənazəsi Ədli Tibb Qurumuna aparılıb. Yataqxananın yaxınlığındakı binanın sakini hadisə barədə bunları deyib: "Səhər saatlarında səsə oyandıq. Pəncərədən baxanda gördüm ki, təcili tibbi yardım maşını gəlib. Kimlərsə qışqırırdı. Bir nəfərin yuxarıdan aşağı pərdələrdən tutaraq endiyini öyrəndim. Dedilər ki, Pakistan vətəndaşıdır".

**Məlahət**

# 1,8 milyard dollar...

Bill Geytsin boşanmadan itirdiyi məbləğ bəlli oldu



**"Microsoft" şirkətinin təsisçisi və sahibi Bill Geytsin həyat yoldaşı Melinda ondan boşanandan sonra 1,8 milyard ABŞ dolları məbləğində qiymətli kağız alıb.**

Həmin qiymətli kağızlar arasında Kanada Milli Dəmir Yollarının (CN) 1,5 milyard ABŞ dolları məbləğindəki səhmləri, habelə ABŞ-ın "Autonation" avtomobil satışı şirkətində 300 milyon dollarlıq pay var. Bu barədə ABŞ rəsmi qurumları üçün hesabat sənədlərində bildirilir. "Forbes"-ə görə, Bill Geytsin varidatı 124 milyard dollardır.